## Saxta məlumatın Bakı hava limanı ilə heç bir əlaqəsi yoxdur




**Son günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunun adından sosial şəbəkələrdə açılmış saxta səhifələrdə guya itmiş baqajların satışı ilə bağlı elanlar yerləşdirilir və vətəndaşların şəxsi məlumatlarının toplanmasına cəhd göstərilir.**

"Sherg.az" xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi ilə Heydər Əliyev Beynəlxalq Aeroportunun birgə açıqlamasında deyilir. Bildiririk ki, bu tip məlumatlar tamamilə saxtadır və Bakı hava limanı ilə heç bir əlaqəsi yoxdur. "Vətəndaşlarımızı diqqətli olmağa çağırır, məlumatları yalnız rəsmi mənbələrdən, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportunun rəsmi airport.az saytından, sosial şəbəkə hesablarından izləməyi tövsiyə edirik. Saxta material, habelə onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir", - məlumatda deyilir.




## Türkiyə təyyarəsi hava boşluğuna düşüb

4 sərnişin və 2 ekipaj üzvü xəsarət alıb

**İstanbul-Taypey marşrutu üzrə hərəkət edən Türkiyə Hava Yollarına (THY) məxsus sərnişin təyyarəsi enişə 2 saat qalmış hava boşluğuna düşüb və nəticədə 4 sərnişin və 2 ekipaj üzvü yüngül xəsarət alıb.**

Axar.az xəbər verir ki, təyyarə Taypey hava limanına təhlükəsiz şəkildə enib. Xəsarət alan sərnişinlərdən ikisi xəstəxanaya yerləşdirilib.


№ 161 (6162) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 sentyabr 2024-cü il (cümə)




# Şagirdləri parklara da aparmaq olar

İlk dərs günü "Yaşıl dünya naminə həmrəylik" mövzusunda olacaq

**Yeni tədris ilinin başlanmasına sayılı günlər qaldığı bir vaxtda elm və təhsil naziri növbəti əmr imzalayıb.**

Yeni əmr ilk dərs gününün hansı mövzuda olacağıyla bağlıdır. Elm və təhsil naziri Emin Əmrullayevin əmrinə əsasən 2024-2025-ci ilin ilk dərs günü "Yaşıl dünya naminə həmrəylik" mövzusunda olacaq.

Qeyd edilir ki, ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə əmrə əsasən məktəblərin II-XI siniflərində ilk dərs "Yaşıl dünya naminə həmrəylik" mövzusuna həsr edilməsi tövsiyə olunur.

(səh.4)



## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il sentyabrın 5-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın avqustun 29-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki hüququnun mübahisələndirilməsi iddiasi ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

(səh.2)

# İtaliya Azərbaycanın etibarlı tərəfdaşıdır

Yeni bir mərhələnin əsası qoyuldu, iki ölkə əl-ələ verərək uzun bir yol qət edəcək



**Azərbaycan Prezidenti İlham Əliyev İtaliya rəhbəri Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfərə gedib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.

Romanın "Quirinale" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi.

Sercio Mattarella dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

O, Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğuladı.

(səh.2)

## Azərbaycanı müharibəyə təşviq etmək istəyirlər

Sərhəddə təxribatın məqsədi vəziyyəti gərginləşdirmək, yeni münaqişə ocağı yaratmaqdır



**Ermənistan növbəti dəfə Naxçıvan və Kəlbəcər istiqamətində hərbi təxribat törədib. Son günlər təxribatlar intensiv hal alıb.**

Ermənistan hazırda sülh müstəvisində olan danışıqları uzatmağa, qeyri-müəyyənlik yaratmağa çalışır.

Burada kənar təsirlərin rolu da az deyil. Məqsəd mümkün qədər Azərbaycanı təxribata çəkib, vaxt qazanmaqdan ibarətdir. Ermənistanın son günlərdə davamlı silahlanması da təhlükələrdən xəbər verir. Ölkəyə Hindistandan və Fransadan ən yeni hərbi texnikalar daxil olmaqdadır. Fransanın 155 mm-lik "SEZAR" özüyeriyən artilleriya qurğuları və onların komponentləri, həmçinin tank əleyhinə raket sistemləri və "hava-hava" tipli raketlər son 3-4 həftə ərzində Ermənistana gətirilib.

(səh.3)

# Ukrayna və Rusiya müharibədən bezib

Putin Türkiyədə əldə olunmuş razılaşma əsasında sülh danışıqlarına qayıtmağa hazırdır



**Rusiya 2022-ci ildə İstanbulda (Türkiyə) əldə olunmuş razılaşma əsasında Ukrayna ilə danışıqlara qayıtmağa hazırdır.**

Bunu Rusiya Prezidenti Vladimir Putin deyib. Rusiya lideri bildirib ki, Moskva danışıqlardan heç vaxt vaz keçməyib: "Amma bəzi xüsusi tələblər əsasında yox, İstanbulda razılaşdırılan və faktiki paraflanan sənədlər əsasında". Putinin sözlərinə görə, o zaman mümkün sülh sazişinin demək olar ki, bütün parametrləri razılaşdırılıb, amma sonra Böyük Britaniya prosesə müdaxilə edib və Ukrayna hakimiyyəti başqa yol tutub.

(səh.5)



## "Meymunçiçəyi" virusu qapıdadır

Xəstəxanalarda xüsusi yerlər ayrılmalı, tam hazırlıqlı olmaq lazımdır

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının tapşırığına əsasən Səhiyyə Nazirliyində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), "Azərbaycan Hava Yolları" QSC və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının səlahiyyətli nümayəndələrinin iştirakı ilə görüş keçirilib.

(səh.2)

## Qarabağ separatçılarının cinayət işinin istintaqı yekunlaşıb

İş yaxın vaxtlarda məhkəməyə göndəriləcək



**Azərbaycanın Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğalından sonra yaradılmış qondarma qurumun separatçı rəhbərlərinin barəsində olan cinayət işlərinin istintaqı başa çatıb.**

Bunu Rusiyada Şərq İqtisadi Forumunda iştirak edən Azərbaycanın Baş prokuroru Kamran Əliyev News.ru-ya müsahibəsində deyib. Baş prokuror separatçılarla bağlı cinayət işi üzrə istintaqın başa çatdığını, cinayət işi materiallarının baxılması üçün yaxın vaxtlarda məhkəməyə göndəriləcəyini bildirib.

## Bərdədə 31 yaşlı kişi kanalda batdı



**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Yuxarı Qarabağ kanalının Bərdə rayonu, Cəyirli kəndi ərazisindən keçən hissəsində 1 nəfərin batması barədə məlumat daxil olub.**

FHN xəbər verir ki, məlumatla əlaqədar hadisə yerinə FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin "Aran" dalğıc-axtarış qrupunun qüvvələri cəlb edilib.

Hazırda batdığı ehtimal olunan 1993-cü il təvəllüdlü Əhmədli Kənan İlyas oğlunun axtarışları dalğıclar tərəfindən davam etdirilir.

Əlavə məlumat veriləcək.



## Ömürlük tələb edir

Fazil Mustafa ona güllə atan şəxsə verilmiş cəzadan narazıdır

(səh.4)



## Səfir yalan danışır

Moskva heç vaxt Bakı ilə İrəvan arasındakı danışıqlarda ədalətli vasitəçi rolunda çıxış etməyib

(səh.3)



# İtaliya Azərbaycanın etibarlı tərəfdaşıdır

## Yeni bir mərhələnin əsası qoyuldu, iki ölkə əl-ələ verərək uzun bir yol qət edəcək

**Azərbaycan Prezidenti İlham Əliyev İtaliya rəhbəri Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfərə gedib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.

Romanın "Quirinale" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi.

Sercio Mattarella dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

O, Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğuladı.

Sercio Mattarella özünün Azərbaycana səfərini məmnunluqla xatırladı.

Son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını, İtaliya-Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğuladı, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd etdi. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulandı. Bu gün TAP layihəsinin həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunularaq, hazırda bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olundu.

İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu dedi və ölkəsinin COP29-da yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğuladı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda, ölkəmizə olan etimadın göstəricisidir. Dövlətimizin başçısı COP29 - beynəlxalq iqlim dəyişikliyi məsələlərində Azərbaycanın İtaliya ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Dövlətimizin başçısı Azərbaycanın COP çərçivəsində də iqlim məsələləri üzrə həmrəyliyin təşviq edilməsi istiqamətində səy göstərəcəyini vurğuladı.

Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğuladı və Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin mövcud olduğunu dedi. Bununla belə, dövlətimizin başçısı təəssüflə qeyd etdi ki, bəzi Avropa ölkələri bu əlaqələrin inkişafına maneə yaradırlar. Regionda sülh gündəliyinə toxunan Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması təşəbbüsünün, bu müqavilənin əsasını təşkil edən prinsiplərin, eyni zamanda, Cənubi Qafqazda regional əməkdaşlıq layihələrinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı buna baxmayaraq Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olduğunu qeyd edərək, Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmini vurğuladı və bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacağını bildirdi.

Görüşdə çoxsaylı İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti, xüsusilə Qarabağda bir sıra sahələrdə, o cümlədən bərpa-quruculuq işlərində, muzeylərin tikilməsində və digər müxtəlif layihələrin icrasında iştirak etdikləri vurğulandı.

Sonda Prezident İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət etdi. Sercio Mattarella dəvəti məmnunluqla qəbul etdi.

Daha sonra Romada Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib.

Əvvəlcə Prezident İlham Əliyev ilə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin təkbətək görüşü oldu.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Ciorcia Meloni dövlətimizin başçısının İtaliyaya bu səfərinin çox səmərəli olduğunu vurğulayaraq, Prezident İlham Əliyevlə İtaliya-Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyində olan məsələlərə dair ətraflı müzakirələr aparıldığını qeyd etdi, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirildiyini bildirdi. Bu xüsusda, ölkələrimiz arasında ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar, mədəni istiqamətlərdə əlaqələrin inkişafı barədə ətraflı fikir mübadiləsi aparıldı. Humanitar-mədəni əlaqələrin inkişafında ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya-Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd olundu.

Enerji sahəsində ikitərəfli əməkdaşlıqdan məmnunluq ifadə edildi. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, onun bu gün İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunuldu, TAP-ın ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparıldı.

İtaliya Nazirlər Şurasının sədri Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara görə minnətdarlığını bildirdi və bu xüsusda, ölkəmizin rolunu qeyd etdi. O, COP29-a dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi və bu tədbirdə məmnuniyyətlə iştirak edəcəyini vurğuladı. İtaliya Nazirlər Şurasının sədri COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu dedi. Bu xüsusda, İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanın COP nümayəndə heyəti ilə yaxından əməkdaşlığı və Azərbaycanın COP prezidentinin G20 çərçivəsində İtaliyada keçirilən ekologiya nazirlərinin toplantısında iştirakı qeyd olundu.

Prezident İlham Əliyev İtaliya Nazirlər Şurasının sədrini Azərbaycana rəsmi səfərə dəvət etdi. Ciorcia Meloni dəvəti məmnunluqla qəbul etdi.

Prezident İlham Əliyevin İtaliyaya səfəri həm regional, həm də beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyətə malikdir. İki ölkə arasındakı yüksək siyasi dialoq hazırkı dövrlə yanaşı, gələcək illərdə də əlaqələrin şaxələnməsinə, beynəlxalq əhəmiyyətli məsələlərdə səmimi tərəfdaşlığa xidmət edir. Cənubi Qafqazın ən güclü və modern dövləti, siyasi, iqtisadi və mədəni mərkəzi olan Azərbaycanı İtaliya ilə sıx əlaqələr bağlayır. İtaliya ilə münasibətlərin inkişaf dinamikası olduqca yüksəkdir və ölkələrimiz arasında müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələri daim genişlənir. Onun sözlərinə görə, ölkələrimiz arasında ticarət əməkdaşlığı iqtisadi münasibətlərin əsas istiqamətlərindəndir. Qarşılıqlı ticarət dövriyyəsi 6 milyard ABŞ dollarından çox olmaqla hazırda İtaliya ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir. Müstəqillik illərində İtaliyanın Azərbaycan iqtisadiyyatına 770 milyon ABŞ dollarından çox, Azərbaycanın isə İtaliyaya 1,7 milyard ABŞ dolları həcmində investisiya yatırması uğurlu investisiya əməkdaşlığının göstəricisidir. Ölkələrimiz arasında iqtisadi əlaqələr əsasən neft-qaz və enerji sektorunu əhatə etsə də, son illərdə qeyri-neft sektoru üzrə də ciddi əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və s. sektorlarda İtaliyanın 114 şirkəti fəaliyyət göstərir. İtaliya şirkətləri, həmçinin ölkəmizin neft-qaz sektorunda dəyəri 9,9 milyard dollar olan 277 layihədə, qeyri-neft sektorunda isə dəyəri 708 milyard dollar olan 37 layihədə podratçı kimi iştirak edirlər. Bu statistika ikitərəfli münasibətlərdə iqtisadi faktorun güclü elementi sayılır. Azərbaycan-İtaliya münasibətləri bu gün dünya üçün mühüm töhfələr vəd edir. Bu əməkdaşlıq qarşıdakı illərdə daha da güclənəcək. Azərbaycan Qafqazda Avropa İttifaqının, o cümlədən İtaliyanın ən yaxın strateji tərəfdaşıdır. İtaliya Ermənistan ilə Azərbaycan arasında uzun illər davam edən münaqişənin həlli istiqamətində ədalətli yanaşma sərgiləyib. Vətən müharibəsi zamanı da İtaliya Azərbaycanın yanında olub, bu ölkənin parlament qrupu Azərbaycana səfər edib. Senatorlar Gəncə şəhərinin Ermənistan tərəfindən raketlərlə atəşə tutulmasının nəticələri ilə, Ağdam rayonunda işğalın fəsadları ilə yerində tanış olub, öz fikirlərini bölüşüblər. İşğaldan azad olunan ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərində də İtaliya şirkətləri əsas pay sahiblərindəndir. Hazırda respublikamızın üç şəhərində İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da dost ölkə şirkətləri tərəfindən həyata keçirilir. Xatırladaq ki, Prezident İlham Əliyevin iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümündə - 2022-ci il avqustun 31-də İtaliyaya işgüzar səfəri və səfər çərçivəsində imzalanan sənədlər iki ölkə arasında münasibətlərin daha da dərinləşməsinə, strateji əməkdaşlıq və tərəfdaşlığın daha yüksək səviyyəyə qalxmasına imkan yaratdı. Səfər zamanı Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirildi. Şübhə yox ki, dövlət başçısının İtaliyaya budəfəki səfəri də iki ölkə arasında strateji tərəfdaşlığı daha da inkişaf etdirəcək və münasibətlərdə yeni səhifə açacaq.

İtaliyanın əsas mətbu orqanlarından olan "Formiche" qəzeti Prezident İlham Əliyevin Romaya səfəri zamanı müzakirə olunan məsələlərə, Azərbaycanın regionda və dünyada oynadığı vacib rola dair məqalə yayımlayıb. Yazıda deyilib ki, Azərbaycan həm Asiyada, həm də Avropada müxtəlif mədəniyyətlərin və sivilizasiyaların dəyərlərini mənimsəyir və bu, ona əsl körpü rolunu oynamağa imkan verir. Bildirilib ki, Baş nazir Giorgia Meloninin hökuməti bunun fərqindədir və ümumi strategiyaları həyata keçirmək üçün həmin geosiyasi məkanla dialoqu gücləndirməyi hədəfləyir: "İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır, Azərbaycan isə Cənubi Qafqaz regionunda İtaliyanın əsas ticarət tərəfdaşıdır". Məqalədə iki ölkə arasında əlaqələrin güclü olduğu qeyd edilib və xatırladılıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il iyunun 26-da İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu və İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirellini qəbul edib. Eyni zamanda "Ansaldo Energia" ilə "Azərenerji" arasında müqavilənin, habelə Azərbaycan Hərbi Hava Qüvvələrinə "Leonardo" şirkətinin istehsalı olan "C-27 J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin tədarükü üçün müqavilənin imzalanmasına diqqət çəkilib. Roma-Bakı əlaqələrinin nəinki müdafiə, həm də mədəniyyət baxımından da möhkəm olduğu yazıda bildirilib. Bakıda ADA Universitetinin kampusunda İtaliya-Azərbaycan Universitetinin təməlinin qoyulduğu diqqətə çatdırılıb.

İtaliyanın Asiya üzrə İnstitutunun (ISIA) vitse-prezidenti Sercio Divina deyib ki, Azərbaycan-İtaliya arasında sənaye, kənd təsərrüfatı və mühəndislik sahələrində mükəmməl nəticələr əldə edilib, şirkətlər bu sahələrdə çox maraqlı mübadilələr aparıb: "İlk növbədə TAP layihəsini xatırlatmaq istəyirəm. Bu, demək olar İtaliya üçün, ölkəmizin milli enerji təhlükəsizliyi baxımından strateji bir layihədir. Düşünürəm ki, Orta Dəhlizin inkişafı nəzərə alındıqda, hələ də birgə olacağıq. Planlaşdırma və böyük layihələrin reallaşdırılmasında çox ehtimal ki, uzun bir yol qət edəcəyik. Beləliklə, İtaliya və Azərbaycan əl-ələ verərək uzun bir yol qət edəcək".

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə deyib ki, İtaliya Azərbaycanın vacib tərəfdaşlarından hesab olunur. Deputatın sözlərinə görə, son illər ölkələr arasında ticarət dövriyyəsinin həcmində kəskin artımlar müşahidə edilməkdədir:** "Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 15 milyard 685 milyon dollar olub. Ölkələr arasında ticarət dövriyyəsi son 4 ildə 3.4 dəfə artıb. Azərbaycan və İtaliya arasında ən böyük ticarət dövriyyəsi isə 2022-ci ildə qeydə alınıb: - 18 milyard 122 milyon dollar. Bu kəskin artım Rusiya-Ukrayna müharibəsi fonunda dünya bazarında enerji resurslarının və eləcə də mavi qazın qiymətinin kəskin artması ilə bağlıdır.

2023-cü ildə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 30 faizindən çoxu İtaliyanın payına düşüb. Azərbaycan xüsusən də enerji məhsullarını Avropa bazarına İtaliya vasitəsilə ixrac edir. Bu baxımdan təbii ki, Azərbaycanla Avropa İttifaqı arasındakı ticarət dövriyyəsinin əhəmiyyətli hissəsi İtaliyanın payına düşür. Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycanın İtaliya bazarına mavi qaz nəql etməsi ticarət dövriyyəsinin həcminə birbaşa təsir göstərib. Hazırda Azərbaycandan Avropaya 12 milyard kubmetr qaz ixrac olunur, ikinci mərhələdə isə bu göstərici 20 milyard kubmetr olacaq. Nəql ediləcək mavi qazın əhəmiyyətli hissəsi məhz İtaliya bazarına ixrac edilir ki, bu da təbii ki, ölkələr arasındakı iqtisadi münasibətlərin növbəti dövrdə də inkişaf edəcəyindən xəbər verir".

**Parlament üzvünün sözlərinə görə, Prezidentin İtaliyaya səfəri iki ölkə arasındakı münasibətlərin daha da inkişafı baxımından və strateji əməkdaşlığın gücləndirilməsi aspektindən kifayət qədər əhəmiyyətlidir:** "Azərbaycan Prezidentinin İtaliyaya səfərindən sonra ölkələr arasında qeyri-neft sektorunda da əməkdaşlığın güclənməsinin müşahidə olunacağı gözlənilir. İtaliya investisiyasının Azərbaycanın qeyri-neft sektoruna və eləcə də işğaldan azad olunan ərazilərimizə cəlb edilməsi də prioritet olaraq qalmaqdadır. O baxımdan Azərbaycan Prezidentinin İtaliyaya səfəri iki ölkə arasındakı əməkdaşlıqda yeni bir mərhələnin əsasını qoyacaq".

**İsmayıl Qocayev**

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə 2024-cü il sentyabrın 5-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın avqustun 29-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki hüququnun mübahisələndirilməsi iddiasi ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada, operativ şəkildə iclasa çıxarılan müraciətlər Komissiya üzvləri tərəfindən geniş müzakirə edilib və Seçki Məcəlləsinin tələblərinə uyğun, əsaslandırılmış qərarlar qəbul olunub.

Beynəlxalq müşahidə missiyası təmsilçiləri və media mənsublarının iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

# Sənəd Konstitusiya Məhkəməsinə göndərilib

## Ermənistan hökuməti Azərbaycanla delimitasiya üzrə komissiyalara dair Əsasnaməni təsdiqləyib



**Ermənistan hökuməti Azərbaycanla delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnaməni təsdiqləyib.**

Ermənistan mətbuatı xəbər verir ki, sənəd baxılması üçün Konstitusiya Məhkəməsinə göndərilib.

Qeyd edək ki, Azərbaycanla Ermənistan delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnaməni imzalayıb.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb.

Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb.

Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.

# "Meymunçiçəyi" virusu qapıdadır

## Xəstəxanalarda xüsusi yerlər ayrılmalı, tam hazırlıqlı olmaq lazımdır



**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının tapşırığına əsasən Səhiyyə Nazirliyində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), "Azərbaycan Hava Yolları" QSC və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının səlahiyyətli nümayəndələrinin iştirakı ilə görüş keçirilib.**

Bununla bağlı Səhiyyə Nazirliyinin məlumatında qeyd edilir ki, görüşdə cari ilin noyabr ayında COP29 beynəlxalq tədbirinin ölkəmizdə keçirilməsi ilə əlaqədar aidiyyəti qurumların birgə koordinasiyalı fəaliyyətinin təşkili üçün hazırlanmış tədbirlər planı müzakirə olunub. Hazırda bir çox ölkələrdə "Meymunçiçəyi" virusunun sürətlə yayılması hallarını nəzərə alaraq, respublika ərazisində profilaktik tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulanıb. Yekunda rəy və təkliflər dinlənilərək görüləcək fəaliyyətlərə dair vahid yanaşma müəyyənləşdirilib.

COP29-da iştirak etmək üçün ölkəmizə gələcək qonaqların sayının çoxluğu diqqətə alındıqda, əlbəttə, preventiv tədbirlər xüsusi önəm daşıyır. Məlumdur ki, koronavirus zamanı ölkə xaricinə çıxan vətəndaşlardan və ölkəyə gələn qonaqlardan Covid pasportu təqdim etmək tələb olunurdu. Oxşar tələb indi də irəli sürülə bilərmi? Ölkəyə gələcək qonaqlardan "meymunçiçəyi" virusuna yoluxmadıqlarına dair tibbi arayış tələb etmək ehtimal olunan təhlükənin minimuma endirilməsində əhəmiyyətli olardımı?

**Azərbaycan Tibb Universitetinin professoru Adil Qeybulla "Şərq"ə açıqlamasında bildirdi ki, "meymunçiçəyi" virusu COVID-19-dan fərqlənir:**

- COVID-19-un əlamətləri özünü qısa müddətdə büruzə verirdi. "Meymunçiçəyi" virusu fərqlidir. Bu virusa yoluxduqda onun gizlilik dövrü bir neçə həftəyə qədər, ola bilsin, bəzən 3 həftəyə qədər davam edir. Ona görə də mümkündür ki, insanda "meymunçiçəyi"nə yoluxduğunun heç bir əlaməti olmasın, sağlam insan kimi gəlsin, amma əlamətlər sonra burada üzə çıxsın. "Meymunçiçəyi" ilə bağlı situasiya koronavirusdan fərqlidir. Hətta sağlamlıq arayışı olan, müayinələr zamanı meymunçiçəyi virusu aşkarlanmamış adam yoluxmuş ola bilər, sadəcə, onun əlamətləri özünü bir neçə həftə sonra göstərə bilər. Mümkündür ki, müəyyən zəifliyi, xəstəlik əlaməti, dəri əlaməti olan şəxs tibbi müayinəyə cəlb edilsin, müəyyən müddətə izolə edilsin. Amma hər hansı əlamət olmadan kimisə müayinəyə cəlb etmək real deyil.

**A.Qeybulla qeyd etdi ki, COP29 ərəfəsində ölkəyə xeyli sayda əcnəbinin gələcəyi nəzərə alınaraq bütün sahələrə diqqət artırılmalıdır:**

- Hesab edirəm ki, qabaqlayıcı tədbirlər gücləndirilməlidir. COP29 ərəfəsində təhlükəli ola biləcək halların qarşısı dərhal alınmalıdır. Xəstəxanalarda xüsusi yerlər ayrılmalı, tam hazırlıqlı olmaq lazımdır.

**Məlahət Rzayeva**



# Azərbaycanı müharibəyə təşviq etmək istəyirlər

## Sərhəddə təxribatın məqsədi vəziyyəti gərginləşdirmək, yeni münaqişə ocağı yaratmaqdır

**Ermənistan növbəti dəfə Naxçıvan və Kəlbəcər istiqamətində hərbi təxribat törədib. Son günlər təxribatlar intensiv hal alıb. Ermənistan hazırda sülh müstəvisində olan danışıqları uzatmağa, qeyri-müəyyənlik yaratmağa çalışır. Burada kənar təsirlərin rolu da az deyil. Məqsəd mümkün qədər Azərbaycanı təxribata çəkib, vaxt qazanmaqdan ibarətdir. Ermənistanın son günlərdə davamlı silahlanması da təhlükələrdən xəbər verir.**

Ölkəyə Hindistandan və Fransadan ən yeni hərbi texnikalar daxil olmaqdadır. Fransanın 155 mm-lik ”SEZAR” özüyeriyən artilleriya qurğuları və onların komponentləri, həmçinin tank əleyhinə raket sistemləri və ”hava-hava” tipli raketlər son 3-4 həftə ərzində Ermənistana gətirilib. Hazırda Ermənistan ordusunda SEZAR özüyeriyən silahlarının bir diviziyası yerləşdirilib. Fransız silahları Orli hava limanından İranın Mehrabad hava limanına göndərilir. Oradan İranın Merage aviaşirkəti silahları birbaşa son təyinat yerinə - Ermənistana çatdırır. Bununla da, guya izi gizlətməyə çalışırlar. Həmçinin Fransa Ermənistan ordusunun sərəncamına onlarla R511 və R530 ”hava-hava” tipli raketlər, 30 ERYX tank əleyhinə raketlər, onlarla Almaniya istehsalı olan DM32 qumbaraatanları, həmçinin ”Panzerfaust” verilib. Ermənistan silahlı qüvvələrinə Fransa istehsalı olan 500-ə yaxın birdəfəlik ”Apilas” reaktiv yaylım atəşi sistemləri və Amerikanın 50 ədəd BGM71-TOW tank əleyhinə raket kompleksləri verilib. Ermənistana, xüsusən şərti sərhədlərə daşınan yeni hərbi texnikalardan Azərbaycana qarşı təxribatlarda istifadə olunur. Maraqlı məqam odur ki, bir tərəfdən Ermənistan və Azərbaycan arasında sülh danışıqları davam etdirilir, sərhəd komissiyalarının Əsasnaməsi təsdiq olunur, Paşinyan və komandası hər səhər sülhdən dəm vurur, ancaq paralel olaraq şərti sərhədlərdə təxribatlar baş verir. Adətən də, İrəvan hökuməti hərbi müstəvidə yaşanan təxribatlara görə məsuliyyəti üzərinə götürmür.

**Ermənistanın təxribat cəhdlərini “Şərq”ə təhlil edən ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov deyib ki, Naxçıvan və Kəlbəcər istiqamətində mövqelərimizin atəşə məruz qalmasına görə bütün məsuliyyət İrəvan hökumətinin üzərinə düşür. Ekspertin sözlərinə görə, Ermənistan rəhbərliyi davamlı atəşkəs pozuntularına görə məsuliyyətdən boyun qaçıra bilməz:** ”Necə olur ki, Paşinyanın rəhbərlik etdiyi ölkənin ərazisindən, onun tabeliyində olan silahlı qüvvələrin mənsubları Azərbaycanın mövqelərini atəşə tutur, amma baş nazir bunu kənar qüvvələrin üzərinə atır. Düzdür, Ermənistanda kənar qüvvələrin müdaxiləsi, təhriki hər zaman olub və bu, qaçılmazdır. Çünki Ermənistan sərhədlərini Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunları qoruyur. O zaman belə təəssürat yaranır ki, Naxçıvan və Kəlbəcər istiqamətində təxribata əl atanların arxasında Rusiya dayanır. Əgər atəşkəsi ermənilər pozmursa, deməli, ruslar pozurlar. Çünki gərginliyin qalması, tərəflərin sülhə yaxınlaşmaması indiki halda Moskvaya sərf edir. Məhz bu sayədə Rusiya rəhbərliyi və digər rəsmilər Azərbaycan-Ermənistan arasında vasitəçilik təklifi ilə çıxış edir. Rusiya fürsət düşən kimi üçtərəfli bəyanatın alternativinin olmadığını, tərəflərin həmin sənədin icrasında öhdəlik daşıdığını vurğulayır. Kremlin təşəbbüslərinə yaxın getməyən isə ilk növbədə Paşinyan hökumətidir. Baş nazir ötən gün Putinlə danışığında da deyib ki, İrəvan Bakı ilə ikitərəfli müzakirələrə üstünlük verir. Ermənistan rəhbərliyi özü də etiraf edir ki, orduda ona tabe olmayan pozucu qüvvələr var. Ancaq bu hal İrəvan hakimiyyətini məsuliyyətdən kənarda qoymur. Əgər Ermənistanın baş naziri Azərbaycanla sülh sazişindən danışır, tez zamanda müqavilənin imzalanmasını istəyirsə, ilk növbədə daxildəki qüvvələrə nəzarəti tam ələ almalıdır. Xatırlayırsızsa, ötən il Sərhəd Xidmətimizin mövqeləri atəşə tutulmuşdu. Azərbaycan tərəfi İrəvanın mövqeyini gözləmədən, təxribatçı bölmələri darmadağın etdi. O zaman Ermənistan rəhbərliyi söz vermişdi ki, bu cür məsələlər araşdırılacaq, təqsirkarlar məsuliyyətə cəlb olunacaq. Amma İrəvan sözündə durmadı”.

**Ü.Cəfərov vurğulayıb ki, sentyabr ayı boyunca mövqelərimiz davamlı atəşə tutulacaq, müəyyən təxribatlar olacaq:** ”Çünki sentyabr ayı ermənilər üçün mənfi təəssüratlarla yadda qalıb, məhz həmin 4 il əvvəl həmin aydan etibarən erməni ordusu darmadağın edilib, biabırçı məğlubiyyətə düçar olub. Tərərflər arasında yaxınlaşmanı istəməyən bəzi dövlətlər də Ermənistanı aktiv şəkildə silahlandırır, onlara lobbi dəstəyi verir, erməniləri təxribatlara təhrik edirlər. Paşinyan üçün çox çətindir və baş nazir ölkə daxilində ciddi problemlərlə üz-üzədir. Hökumət proseslərə nəzarət edə bilmir. Çıxış yolu, axara düşmək yox, əksinə, mövcud problemləri bir-bir həll etmək, təxribatları cəzalandırmaqdır. Əks halda Azərbaycan Ordusunun təxribatlara cavabı çox sərt formada ola bilər. Bunun anonsu artıq verilib. 30 il Azərbaycan torpaqlarını işğalda saxlamış, ərazilərimizə və bir milyon insanımıza ciddi ziyan vurmuş Ermənistan buna görə üzr istəmək və təzminat ödəmək əvəzinə silahlanır və təxribatlara əl atır. Ermənistanda arxayınlıq var, çünki yaxşı bilirlər ki, beynəlxalq ədalət və hüquq işləmir, suçluları cəzalandırmır. Bunu Rusiya-Ukrayna müharibəsində, İsrail-HƏMAS savaşında da gördük. Ermənistan da bu vəziyyətdən maksimum faydalanmağa, öz maraqlarını təmin etməyə çalışır”.

**Hərbi ekspert Ədalət Verdiyevin “Şərq”ə açıqlamasına görə, Ermənistanın siyasi rəhbərliyinin ona havadarlıq edən xarici qüvvələr tərəfindən idarə edilməsi səbəbindən sülh danışıqları istiqamətində aparılan danışıqlar nəticə vermir. Ekspert hesab edir ki, təxribatın məqsədi vəziyyəti gərginləşdirmək, yeni münaqişə ocağı yaratmaq və bu fonda Azərbaycanı müharibəyə təşviq etməkdir:** ”İndiki vəziyyətdə Ermənistanla sülh sazişi istiqamətində danışıqların aparılması real görünmür”.

Ermənistanın Azərbaycanla razılığa gəlmək niyyətində olmadığını vurğulayan Ə.Verdiyev qeyd edib ki, sülhün əldə olunması üçün Ermənistan Konstitusiyasına müvafiq dəyişikliklər edilməli, ölkəmizə qarşı ərazi iddiaları çıxarılmalıdır: ”Ermənistan isə prosesi ləngitməklə, ən azı yaxın 3 il müddətində Azərbaycanla sülh sazişi imzalamaqda maraqlı deyil. Ermənistanın Naxçıvan və Kəlbəcər istiqamətində törətdiyi təxribatlar birmənalı olaraq işğalçı ölkənin sərhəddə genişmiqyaslı eskalasiyaya hazırlaşdığını nümayiş etdirir”.

Ermənistanın Azərbaycanla şərti sərhəd ərazilərində yeni hərbi hissələr, ağır texnika və silah-sursat kimi digər döyüş avadanlıqları yerləşdirdiyini əlavə edən hərbi ekspert deyib ki, əldə etdiyi silahlarla da Azərbaycan ordusunun mövqelərinə qarşı təxribat törədərək atəşkəsi intensiv şəkildə pozur.

**İsmayıl Qocayev,**
**Şəymən Bayramova**

# Səfir yalan danışır

## Moskva heç vaxt Bakı ilə İrəvan arasındakı danışıqlarda ədalətli vasitəçi rolunda çıxış etməyib

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Bakı-İrəvan arasında sülh prosesindən danışıb. Kopırnik deyib ki, Moskva heç vaxt Bakı və İrəvan arasındakı danışıqlar prosesində ədalətli vasitəçi rolundan imtina etməyib. Onun sözlərinə görə, Putinin Azərbaycana səfəri, liderlərlə telefon danışığı bunun təsdiqidir.**



“Baxın, rusiyalı səfir etiraf edir ki, Ermənistan həmişə olduğu kimi Moskvanın tam diktəsi ilə yenə də addım atsaydı, vəziyyət indiki kimi ermənilərin ziyanına olmazdı”

Səfir iddia edib ki, İrəvan 2022-ci ilin sentyabrında Azərbaycanla sərhəddə vəziyyəti sabitləşdirmək üçün KTMT vasitəsilə bir sıra tədbirlər həyata keçirməyə razılaşsaydı, onun üçün risklər azalacaqdı. Kopırkin Avropa İttifaqının müşahidəçi missiyasının Ermənistan sərhədində kəşfiyyat məlumatı topladığını qeyd edib. Səfirin sözlərinə görə, Rusiya iki müttəfiqi arasında balanslı sülh müqaviləsinin imzalanmasına təhlükəsizlik arxitekturasının qurulması üçün imkan kimi baxır.

**Politoloq Əli Oruclu ”Şərq”ə açıqlamasında bildirib ki, o, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin dediklərinin əksinə olaraq hesab edir ki, Moskva heç vaxt Bakı ilə İrəvan arasındakı danışıqlarda ədalətli vasitəçi rolunda çıxış etməyib. Analitikin sözlərinə görə, Kreml Azərbaycandan fərqli olaraq Ermənistana xüsusi qayğı və diqqətlə yanaşıb, himayəsi haltında saxlayıb və marqalarını müdafiə edib:** ”Azərbaycanın 20 faiz torpaqlarının işğal edilməsində və Ermənistanın təcavüzkar siyasətinə dəstək verən də Rusiya olub. Rusiyalı səfir və siyasi müttəfiqi olan Ermənistanla müstəqil siyasət yürüdən Azərbaycan arasında fərq qoymur? Məhz keçmiş Dağlıq Qarabağ problemini yaradan da, onun həll edilməsinə maneçilik törədən də Kreml olub. İndi də Ermənistanla Azərbaycan arasında substantiv danışıqlar aparılmasına, münasibətlərin normallaşmasına imkan verməyəyə çalışır. Ermənistanda gah kilsəni qızışdırır, gah revanşistləri, gah separatçıları dövrəyə soxur, gah da açıq-gizli təzyiqlər edir ki, sülh prosesi pozulsun. Əgər dünyada və regionda vəziyyət Moskvanın ziyanına dəyişməsəydi, Cənubi Qafqazda münaqişələrin, silahlı toqquşmaların davamına indi də rəvac verərdi”.

**Ekspert ümumiyyətlə, hər hansı vasitəçinin olmasını məqbul saymadığını söyləyib:** ”Ermənistanla Azərbaycan, hər iki dövlət birbaşa danışıqlar aparıb münasibətlərin nizamlanmasına nail olmalıdırlar. Praktik olaraq sübut olundu ki, İrəvanla Bakı arasında birbaşa təmaslar daha effektlidir və müsbət nəticələr verə bilər. Rusiya çox cəhd göstərdi ki, Ermənistanın rəsmən Azərbaycanın ərazi bütövlüyü, suverenliyini və Almatı bəyanaməsi prinsipləri qəbul etməsi barədə verdiyi bəyanatı və imzaladığı sənədi pozsun. Ən azından bunu işləməsini dayandırsın. Lakin məqsədinə çata bilmədi. Buna baxmayaraq, yenə də keçmiş ”Dağlıq Qarabağ münaqişəsinin konkret həllindən” dəm vurur. Moskvanın mövqeyi ədalətli və obyektiv olmadığından onun vasitəçiliyi ancaq prosesə ziyan vura bilər. Baxın, rusiyalı səfir etiraf edir ki, Ermənistan həmişə olduğu kimi Moskvanın tam diktəsi ilə yenə də addım atsaydı, vəziyyət indiki kimi ermənilərin ziyanına olmazdı. Ermənistan ancaq Rusiyanın deyil, Qərbin vasitəçiliyinə, təhlükəsizlik təminatına daha çox üstünlük verir. Moskvanı narahat edən də məhz bu faktordu ki, belə olan halda Cənubi Qafqazda təsiri azalır. Əgər Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanarsa, o zaman Kreml özünün hesab etdiyi strateji bölgəsində mövcudluğunun alternativ yollarını düşünmək məcburiyyətində qalacaq”.

**İsmayıl Qocayev**

# Paşinyanın o qədər zamanı yoxdur

## Baş nazir Qərbi hərəkətə gətirmək üçün bəzən Rusiya kartı ilə manevrlər edir

**”Hraparak” nəşrinin məqaləsində qeyd olunub ki, Ermənistanın BRIKS və MDB toplantısında iştirak edəcəyini açıqlaması onun Rusiya oxuna geri dönməsinin göstəricisidir.**



Nəşr yazır ki, bəzi siyasi dairələr Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfəri ilə bağlı Baş nazir Nikol Paşinyanın Vladimir Putinə zəng etməsindən sonra onun ritorikasının dəyişdiyini düşünür. Paşinyanla telefon danışığından sonra Putinin təkrar Bakıya zəngi,bundan bir neçə gün sonra isə demarkasiya komissiyaları arasında sənəd imzalanması diqqət çəkib. İrəvanın BRIKS və MBD toplantılarında iştirak qərarı verməsinin də Rusiya prezidentinin zəngi ilə əlaqəli olduğu bildirilir. Qeyd edək ki, BRIKS-in iclası oktyabrın 22-22-də Kazanda keçiriləcək.

**Politoloq Natiq Miri ”Şərq”ə açıqlamasında söyləyib ki, Ermənistan onsuz da Rusiyanın orbitindən çıxmayıb:** ”Sadəcə olaraq Ermənistan Rusiya ilə müəyyən məsafə saxlayır ki, bu da perspektivdə rəsmi İrəvanın xarici siyasət istiqamətini göstərir. Yəni Ermənistanda Qərbə inteqrasiya siyasətinə daha çox üstünlük verilir. Eyni zamanda bu gün Nikol Paşinyanın Ermənistan ictimaiyyətində formalaşdırdığı ictimai rəyi də gözdən qaçırmaq olmaz. Digər tərəfdən Rusiyayönümlü qüvvələrə nisbətdə Nikol Paşinyana dəstək verən erməni cəmiyyəti bunu Rusiya ilə dostluq münasibətlərinə görə deyil, perspektivi Qərb dünyası ilə gördükləri üçün edirlər. Bu görüntünü isə Nikol Paşinyan və hökuməti ictimai rəydə yaradıb və hər addımda öz təsirini göstərir. Nikol Paşinyana qarşı may ayında başladılan Baqrat Qalstanyanın etiraz dalğasına nəzər yetirmək lazımdır. İctimaiyyətin böyük əksəriyyəti o aksiyalarda iştirak etmədilər. Çünki əksəriyyət Rusiyayönümlü revanşist qüvvələrin, yeni onilliklər ərzində Ermənistan hakimiyyətində olan və erməni xalqına divan tutan ”Qarabağ klanı”nın yenidən hakimiyyətə qayıtmasını istəmirlər. Digər tərəfdən Ermənistan hökumətinin Avropa İttifaqına inteqrasiya siyasətinə də diqqət yetirmək lazımdır. Qərb dünyasında və Avropa Birliyində olan ləng davranışlar Ermənistanı qane etmir. Çünki Nikol Paşinyanın o qədər zamanı mövcud deyil. Bu baxımdan zaman-zaman Qərb dünyası və Avropa İttifaqını hərəkətə gətirmək üçün bu cür manevrlərdən istifadə olunur. Ermənistanın MDB-nin hansısa tədbirində iştirakı heç nə ifadə etmir. Çünki Ermənistan özünün iqtisadi təhlükəsizliyini təmin etmək üçün belə əlaqələrdə məcburiyyət qarşısında qalır. Həmçinin Ermənistan məhsullarının əsas bazarı Avrasiya İqtisadi Birliyinə üzv olan ölkələrdir. Həmin ticarətin əhəmiyyətli hissəsi isə Rusiya ilə bağlıdır. Ona görə də Ermənistan məhsulları üçün indiki vəziyyətdə Avropada bazar yoxdur. Hətta Avropa bazarlarına çıxış üçün Ermənistan üzərinə standartlarla bağlı şərtlər qoyulub. Ermənistan məhsullarının keyfiyyətinə üstünlük verməlidir ki, bu da zaman və maliyyə tələb edən məsələdir. Sözügedən proseslər və digər sahələrdə təhlükəsizlik məsələləri təminat alana qədər Ermənistan Rusiya ilə belə davranmağa məcburdur”.

**Ekspert qeyd edib ki, bu gün BRICS çiçəklənən bir təşkilatdır:** ”Ümumdünya məhsullarının 37 faizini BRICS-ə üzv olan ölkələr istehsal edir. Yəni BRICS-nin dünya miqyasında yeri çox əhəmiyyətlidir. Eyni zamanda BRICS yeni iqtisadi imkanlar və nəqliyyat kommunikasiya sistemləri deməkdir. Buna görə də Azərbaycan və Türkiyənin BRICS-ə üzv olmaqla bağlı qərarı Ermənistanı da vadar edir ki, həmin təşkilatla əlaqələrini tənzimləsin. Ermənistan hansısa tədbirdə iştirak etməklə BRICS-nin tamhüquqlu üzvü olmur. Sadəcə olaraq Ermənistan rəhbərliyi BRICS və MDB-nin tədbirlərində iştirak etməklə Qərbi qıcıqlandırmağa çalışır. Yəni Ermənistanı vaxtında maliyyə ilə dəstəkləməsəniz, bizim üçün başqa alternativlər var mesajı verilir”.

**Şahanə Ziyad**

# Azərbaycan və İtaliya arasında böyük etimad formalaşıb

## Bu ölkənin Cənubi Qafqazda əsas ticarət tərəfdaşı Azərbaycandır

**Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfərə gedib. Roma şəhərinin ”Leonardo da Vinci Rome Fiumicino” hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.**



“2023-cü ildə də Azərbaycan-İtaliya arasındakı ticarət dövriyyəsinin həcmi 15 milyard dollardan çox olub”

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri qarşılayıblar.

Azərbaycanın etibarlı tərəfdaş və nüfuzlu bir dövlət olaraq qlobal müstəvidə rolunun artdığı bir şəraitdə Azərbaycanla İtaliya arasındakı əlaqələr mühüm bir əhəmiyyət kəsb edir. İki ölkənin münasibətləri 30 il ərzində uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Şübhəsiz ki, bu dövlətlər arasında ali və yüksək səviyyəli səfərlər də əməkdaşlığın möhkəmlənməsində önəmli rol oynayıb. 44 günlük Vətən müharibəsi zamanı da İtaliya Azərbaycanın haqlı mövqeyini dəstəklədi. Bunun nəticəsidir ki, İtaliya işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə cəlb edilən ilk ölkələrdən biridir.

**Siyasi şərhçi Azər Niftiyev ”Şərq”ə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya budəfəki səfəri Azərbaycan-İtaliya münasibətlərində yeni səhifələr açacaq:**

”Ölkələr arasındakı siyasi əlaqələr mükəmməl olduqda bu, iqtisadi, ticarət və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradır. Bu mənada Azərbaycan və İtaliya arasında siyasi əlaqələrin mükəmməlliyi hərtərəfli əməkdaşlığın inkişafına təkan verir. Fikrimcə, İtaliya səfəri Prezident İlham Əliyevin yürütdüyü siyasətin qlobal miqyasda ehtiramla qarşılanmasının və özünün siyasi lider kimi dünyadakı nüfuzunun bariz təcəssümüdür.

Aparıcı Cənubi Avropa ölkəsi kimi İtaliya ilə Azərbaycan arasında qarşılıqlı təmaslar yüksək səviyyədədir və ikitərəfli maraqlara hörmət prinsiplərinə əsaslanır.

İtaliya neft məhsullarının ixracında mühüm ticarət tərəfdaşımızdır. TAP kəmərinin vasitəsilə İtaliyaya 10 milyard kubmetr qaz ixrac olunur ki, gələcəkdə bu rəqəmin iki dəfə artırılması gözlənilir. 2027-ci ilə qədər Azərbaycan qazının Avropaya ixracı ən azı 20 milyard kubmetrə qədər çatmalıdır. Təbii ki, bu da çox vacib xarakter daşıyır. Bu da öz növbəsində açıq şəkildə söyləməyə əsas yaradır ki, İtaliya Azərbaycanın mühüm ticarət partnyorudur”.

**Siyasi şərhçinin sözlərinə görə, İtaliyanın Azərbaycanla əlaqələri yalnız enerji sahəsini deyil, iqtisadiyyatın digər sektorlarını da əhatə edir:** ”Bunu İtaliya şirkətləri tərəfindən enerji, infrastruktur və nəqliyyat sahələrinə geniş həcmdə sərmayə yatırılması da aydın göstərir. Azərbaycan və İtaliya beynəlxalq müstəvidə də daim birbirini dəstəkləyib, iki ölkə arasında böyük etimad formalaşıb.

2023-cü ildə də Azərbaycan-İtaliya arasındakı ticarət dövriyyəsinin həcmi 15 milyard dollardan çox olub. İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşı Azərbaycandır. Buna görə də İtaliyanın iqtisadi-ticari əlaqələrində Azərbaycan vacib rol oynayır. İtaliya səhmdarlarının da bizim ölkəmizə çox geniş marağı var. Azərbaycanda 100-dən çox İtaliya investisiyalı kommersiya qurumları müxtəlif sahələrdə fəaliyyət göstərir. Paytaxt Bakıda Azərbaycan-İtaliya Universitetinin yaradılması, işğaldan azad edilən torpaqlarımızda italyan şirkətlərinin fəal iştirakı, humanitar əlaqələr münasibətlərin parlaq gələcəyindən xəbər verir. Bu xüsusda İlham Əliyevin Romaya səfəri strateji əhəmiyyət kəsb edir və münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcıdır”.

**Şəymən**



# Şagirdləri parklara da aparmaq olar

## İlk dərs günü "Yaşıl dünya naminə həmrəylik" mövzusunda olacaq

**Yeni tədris ilinin başlanmasına sayılı günlər qaldığı bir vaxtda elm və təhsil naziri növbəti əmr imzalayıb. Yeni əmr ilk dərs gününün hansı mövzuda olacağıyla bağlıdır. Elm və təhsil naziri Emin Əmrullayevin əmrinə əsasən 2024-2025-ci ilin ilk dərs günü "Yaşıl dünya naminə həmrəylik" mövzusunda olacaq.**

Qeyd edilir ki, ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə əmrə əsasən məktəblərin II-XI siniflərində ilk dərs "Yaşıl dünya naminə həmrəylik" mövzusuna həsr edilməsi tövsiyə olunur. Xatırladaq ki, Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.



Canlı təbiətlə təmasda dərs keçmək daha faydalı və yaddaqalan olardı

**Təhsil eksperti Elçin Süleymanov "Şərq"ə açıqlamasında qeyd etdi ki, Prezidentin sərəncamıyla 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyi üçün ümumən ölkədə bu istiqamətdə işlər aparılır, görülən işlər bir çox sahələri əhatə edir. Elm və Təhsil Nazirliyi də təbii ki, bu fəaliyyətdən kənarda qalmaq istəmir:**

- Elm və təhsil nazirinin ilk dərs gününün mövzusunun "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmasına dair əmr imzalaması bu məqsədə xidmət edir:

- Bilirik ki, bu ilin noyabr ayında ölkəmizdə mötəbər beynəlxalq tədbir - COP29 keçiriləcək. Bu mötəbər tədbirə hazırlıqlar ən yüksək səviyyədə davam edir. Elm və təhsil naziri də bunu nəzərə alaraq müəllimlərin ilk dərs gününü bu mövzuya həsr etməsini tövsiyə edib. Şagirdlərə yaşıl dünya, onun faydaları, qorunması, gələcək nəsillərə ötürülməsi, hər bir vətəndaşın yaşıl dünya naminə nə iş görə biləcəyi və sair mövzularda maarifləndirici dərs keçilməlidir. Hesab edirəm ki, müəllimlər zatən məlumatlıdırlar, ən azından məlumatlı olmalıdırlar. Ona görə də müəllimlər bu mövzuda maarifləndirici dərs keçməkdə, məncə, çətinlik çəkməzlər. Praktiki dərslər də ola bilər. Şagirdləri əyani şəkildə məlumatlandırmaq, onları ölkədə aparılan işlərlə, yaşıl dünya naminə həyata keçirilən layihələrlə tanış etmək məqsədəuyğun olar. Bir çox ölkələrdə əyani dərslərə daha çox önəm verilir. Şagirdlər teztez təmiz havada, təbiət qoynunda olur, dərslər də bu şəraitdə keçilir. Builki ilk dərs günü ölkəmizin təbii ehtiyatları, sərvətləri, təbii resurslara qənaət, mövcud ekoloji durum, meşələrin, yaşıllıqların qorunması, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr, ağacəkmə kampaniyaları, yaşıllaşdırma, abadlıq işləri, alternativ enerjidən istifadə, işğaldan azad edilmiş ərazilərimizdə yaşıl enerjiyə keçid barədə uşaqlara xeyli məlumat verməklə, həmçinin əyani göstərməklə də olar. İlk dərs günü şagirdləri hətta parklara da aparmaq olar, orada canlı təbiətlə təmasda dərs keçmək daha faydalı və yaddaqalan olardı, məncə. Görüntü uşaqların yaddaşında daha dərin iz qoyur, nəinki danışıq, cümlələrlə fikri ifadə etmək. Yaşıl dünya naminə həmrəylik qlobal məsələdir. Və düşünürəm ki, uşaqlara bunun faydalarının və zəruriliyinin anladılması vacibdir.

**Məlahət Rzayeva**

# Ömürlük tələb edir

## Fazil Mustafa ona güllə atan şəxsə verilmiş cəzadan narazıdır



**Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa onu güllələyən şəxsə verilmiş cəzadan narazıdır. Belə ki, Fazil Mustafa 20 il azadlıqdan məhrum edilmiş Səbuhi Şirinovun ömürlük azadlıqdan məhrum edilməsini istəyir. Deputatın şikayətinə Bakı Apellyasiya Məhkəməsində baxılacaq. Bir neçə gün əvvəl hökmdən iş üzrə təqsirləndirilən şəxslər də şikayət veriblər.**

*"Şərq" Fazil Mustafanın özü ilə əlaqə saxlayıb. O bildirib ki, məsələ ilə bağlı bizim şikayətimiz Apelyasiya Məhkəməsinə göndərilib:*

"Bizim əsasımız budur ki, həmin insanlar bilavasitə şəxsiyyət əleyhinə deyil, dövlət əleyhinə cinayət törədib. Bizim milli təhlükəsizlik haqqında qanunumuz var. Sözügedən qanunda bu proses birbaşa dövlətin maraqlarına toxunan cinayət sayılır. Həmin şəxslər peşmançılıq duymadıqlarına görə sui-qəsdin icraçısı layiqli cəzasını almalıdır. Bizim prinsipial yanaşmamız bundan ibarətdir. Ona görə müraciət də bu istiqamətdə edilib. Ümid edirəm ki, Apelyasiya Məhkəməsində məsələyə daha əhatəli yanaşılacaq və obyektiv qiymət veriləcək".

*Qeyd edək ki, cinayət ötən ilin martında baş verib. Həmin vaxt millət vəkili olan Mustafayev Fazil Qəzənfər oğlu silahdan açılan atəşdən xəsarət alıb. Dövlət Təhlükəsizliyi Xidməti (DTX) hadisəni terror aktı adlandırıb. Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində hadisədə şübhəli bilinən 5 nəfər tutularaq istintaqa təhvil verilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə cinayətin təşkilatçısı kimi Azər Səricanov ömürlük, F.Mustafanı vuran Səbuhi Şirinov 20 il, Rəşad Əhmədov 19 il, Elşad Əsgərov 18 il, Emin Əliyarov isə 4 il müddətinə azadlıqdan məhrum ediliblər.*

**Şahanə Ziyad**

# Separatçılarla eyni tərəzidədir

## Zatulinin nəslini, kökünü araşdırsaq, erməni çıxacaq



**Qatı ermənipərəst mövqeyi ilə tanınan və Rusiyanın erməni icmasının maraqlarını aktiv ifadə edən Konstantin Zatulin növbəti dəfə anti-Azərbaycan mövqeyini nümayiş etdirib, terrora və separatizmə dəstək sərgiləyib.**

Dövlət Dumasının MDB işləri üzrə komitəsinin sədr müavini olan Zatulin bu dəfə qondarma rejimin yaradılmasının ildönümü ilə bağlı Qarabağ separatçılarına təbrik ünvanlayıb. O, Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan və digər terrorçu-separatçılara dəstək nümayiş etdirərək, "Allahdan arzu edirəm ki, onların başına bir iş gəlməsin və tez bir zamanda ailələrinə, Ermənistana qayıtsınlar. Bəzi şərhçilərə görə, Zatulinin fikirləri Rusiya dövlətinin mövqeyi sayıla bilməz. Rusiyanın mövqeyini Kreml, Xarici İşlər Nazirliyi bəyan edir. Xarici siyasət prioritetləri də məhz bu mərkəzlərdə müəyyən olunur. Zatulinin açıqlaması isə sahibindən aldığı təlimatın icrasıdır. Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət, müttəfiqlik sənədində iki dövlətin bir-birinin daxili işlərinə qarışmamaq kimi xüsusi bənd var. Bu məqam Rusiya Prezidenti Vladimir Putinin son Azərbaycan səfərində də qeyd olunub.

**Millət vəkili Azər Badamov "Şərq"ə deyib ki, Zatulinin nəslini, kökünü araşdırsaq, onun damarlarında erməni qanının axdığının şahidi olarıq. Deputatın sözlərinə görə, ancaq damarlarında erməni qanı axan biri erməni separatçıları dəstəkləyə və bəyanatlar səsləndirə bilər:** "Zatulin hətta Ermənistan hakimiyyəti tərəfindən də zibil qutusuna atılmış biridir. Həmişə ermənipərəst mövqeyini sərgiləməsinə baxmayaraq, Paşinyan onu Ermənistanda arzuolunmaz şəxs adlandırıb. Bu, bir daha sübut edir ki, Zatulin erməni separatçıları ilə eyni tərəzidədir. Ona görə də səsləndirdiyi bəyanatda həbsdə olan separatçılara canının yandığını ifadə edib. Zatulinin separatçılarla bağlı səsləndirdiyi bəyanatı Ermənistanda kimə göndərdiyi də məlum deyil. Ermənistan hakimiyyəti nə Zatulini, nə də separatçıların mövcudluğunu tanıyır".

**Parlamentari vurğulayıb ki, Zatulinin bəyanatı Azərbaycan-Rusiya münasibətlərinə heç vaxt kölgə sala bilməz:** "Onun bəyanatı fərd şəklində özünə aiddir. Rusiyanın rəsmi dövlət siyasəti ilə Zatulinin düşmənçilik fikirləri arasında heç bir bağlılıq yoxdur. Zatulin sadəcə Azərbaycanın düşmənidir. Özü də bilir ki, Azərbaycanda erməni separatizminin kökü kəsilib. Sadəcə, yaratdığımız yeni reallıqla barışa bilmir. Bu da onun içinin nə qədər çürük olduğunu üzə çıxarır. Zatulinin ermənipərəst hərəkətlərinə fikir verməməliyik. Çünki o, bizim üçün heç kimdir. Azərbaycan-Rusiya münasibətləri dövlət başçılarının ortaya qoyduğu güclü siyasi iradə üzərində gündən-günə möhkəmlənməkdədir".

**İsmayıl Qocayev**

# Paşinyanın Vardanyanla bağlı suallarından bir nəticə çıxır

## Ermənistan hakimiyyəti birbaşa bu şəxsin kənar qüvvələr tərəfindən Azərbaycana təxribat üçün göndərildiyini təsdiqləyir

**Ermənistan Baş naziri Nikol Paşinyanın Bakıda həbsdə olan Ruben Vardanyan haqqında danışması və müəyyən suallar səsləndirməsi müzakirələrə səbəb olub. Paşinyanın açıqlamaları Ermənistanla yanaşı, Rusiya mediasının da mövzusuna çevrilib. Baş nazir dolayı yolla Moskvanı, daha doğrusu, Vardanyan kartından istifadə edən dairələri ittiham edib. Hökumətin Vardanyanla bağlı suallarının olduğunu söyləyib: "Necə oldu ki, Ruben Vardanyan Rusiya vətəndaşlığından imtina etdi? Bu addımı atmağı ona kim məsləhət görüb və ya göstəriş verib? Onu bu mənada kim göndərib, Ermənistana göndərib, kim Qarabağa hansı məqsədlə, hansı zəmanətlə, hansı təminatla, hansı vədlərlə göndərib?".**



Paşinyan daha sonra əlavə edib ki, İrəvan R.Vardanyanın kim olduğunu bilmir: "Bu suallara cavab istəyirik. Bu, həqiqətən də, bizim üzləşdiyimiz ciddi problemdir". Erməni nazirin sualları Ermənistanın xarici və daxili siyasətindəki qeyri-müəyyənlikləri, narahatlıqları da üzə çıxarıb. Qeyd edək ki, zamanında Ruben Vardanyanın Rusiya dövlətinin təklif etdiyi imtiyazlardan faydalanaraq qazandığı əhəmiyyətli güc və var-dövlət onu regionda, beynəlxalq arenada mühüm bir aktora çevirmişdi. Prezident Vladimir Putinin siyasi dəstəyi ilə Vardanyan Rusiya daxilindəki iqtisadi və siyasi mövqeyini möhkəmləndirmişdi. Lakin Rusiya ilə Qərb arasında artan gərginlik və sanksiyalar Vardanyanı yeni çıxış yolları axtarmağa vadar etdi. Rusiyaya xəyanət edən Vardanyan Rusiya ilə əlaqələrindən uzaqlaşaraq Qərb ölkələrinə yaxınlaşmağa başladı. Məhz bu səbəbdən bəzi şərhçilərə görə, Vardanyanın Qarabağ bölgəsinə göndərilməsi Qərb koalisiyasının strateji addımı kimi qiymətləndirilməlidir. Erməni politoloq Armen Badalyan isə deyib ki, Ermənistan hakimiyyəti Qərbin siyasətini həyata keçirir ki, bu da Rusiyanın regionda təsirinin tədricən neytrallaşdırılmasını nəzərdə tutur. Onun sözlərinə görə, Paşinyanın Vardanyanla bağlı sərt tənqidləri Rusiyaya qarşı yönəlib: "Vardanyanı Rusiya gətirib, özləri də azad etməlidir. Elə bir şey yoxdur ki, Vardanyan gəlib hərəkətə keçəcək, hamı təəccüblənəcək və 5 dəqiqədən sonra baş nazir olacaq. Belə bir şey olmayacaq".

**Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev "Şərq"ə deyib ki, Nikol Paşinyanın terrorçu cani Ruben Vardanyan haqqında səsləndirdiyi suallardan o nəticə çıxır ki, Ermənistan hakimiyyəti birbaşa bu şəxsin kənar qüvvələr tərəfindən Azərbaycana təxribat üçün göndərildiyini təsdiqləyir. Ekspertin sözlərinə görə, bu açıqlamalar revanşist qüvvələrin Paşinyandan terrorçunu müdafiə etməsinə və azadlığa buraxılması üçün Azərbaycanla danışıqlara başlama istəyinə cavabdır:** "Vardanyan Bakıya ezam edilərkən o qədər arxayın edilmişdi ki, hətta mənsub olduğu ölkənin vətəndaşlığından imtina etmişdi. Məhz bu addımından sonra həm istifadə edildiyi ölkədən, həm də İrəvandan dəstəyini itirdi. Təbii ki, terrorçular Qarabağda qalsaydı, Vardanyanla əlaqəyə giriləcəkdi. Lakin ordumuzun ildırım sürətli əməliyyatı planları fiaskoya uğratdı. Ruben Vardanyan gərəksiz əşya kimi unuduldu. Əslində, unuduldu demək də doğru olmazdı, sadəcə, Azərbaycan Vardanyanın ağalarına heç bir şans vermədi".

**Analitikin fikrincə, mövzunu təkrar gündəmə gətirməklə Paşinyan Rusiyanı hədəf göstərmək məqsədi güdür:** "Baş nazir iki ölkə arasında normallaşma prosesində daha çox ikitərəfli əlaqələrin qurulmasında maraqlıdır. Bundan öncə Paşinyan danışıqlarda tərəf olaraq Fransanı irəli çəkməyə çalışırdısa, bu istək artıq keçərli deyil. İrəvanın yeganə çıxış yolu qonşu ölkələrə qarşı ərazi iddialarından və saxta soyqırım ittihamlarından əl çəkərək sülh sazişini tezliklə imzalamaqdır".

**İsmayıl Qocayev**

# Birinci siniflərə qəbul şəffaf aparılır

## Problem ondadır ki, valideynlərin əksəriyyəti istəyir ki, övladı rus bölməsində təhsil alsın

**"1-ci siniflərin qəbul hazırlığı tam qaydasında gedib":**

**Bunu "Şərq"ə təhsil eksperti Elçin Əfəndi bildirib. Onun sözlərinə görə bu sahədə hər hansı bir narazılıq yaşanmır:** "Sadəcə, bəzi hallarda valideynlər narahatlıq yaradırlar. Yəni yaşadıqları yerdə olan məktəblərə deyil, uzaq ərazidə olanlara seçim edirlər. Belə olan halda da seçimlər müsbət nəticələnmir. Ümumiyyətlə, sagirdlər faktiki yaşadığı ünvan ərazisində məktəblər varsa ora sorğunu göndərir və həmin ərazidə də qəbul olunurlar. Digər problem isə rus bölmələrindədir. Təbii ki, valideynlərin böyük əksəriyyəti istəyir ki, övladı rus bölməsində təhsil alsın. Ancaq ya yaşadığı ərazinin məktəbində rus bölməsi olmur, ya da uzaq ərazidə rus bölməsindən imtahan verib qəbul olan uşaqlar yeri doldururlar. Yəni müsahibə mərhələsini keçən uşaqlar qəbul olur, digərləri isə kənarda qalırlar. Dəfələrlə çağırış edirik, rus bölməsində yalnız slavyan xalqlarına aid olan şəxslərin övladları təhsil alsın. Ata da, ana da Azərbaycan dilində danışırlarsa, uşağı rus bölməsinə qoymağın mənası yoxdur. Çünki uşaq o zaman çox əziyyət çəkir. Bu, şagirdin ümumi qiymətlərinə də təsir etmiş olur. Yaxşı olar ki, valideynlər ilk növbədə Azərbaycan bölməsinə üstünlük versinlər. Ümumiyyətlə, qəbul şəffaf bir sistemdir".



**Fidan Həmişəyeva**

# Ukrayna və Rusiya müharibədən bezib

## Putin Türkiyədə əldə olunmuş razılaşma əsasında sülh danışıqlarına qayıtmağa hazırdır



### "Faktiki olaraq tərəflərin ikisi də iqtisadi çöküş dövrünü yaşayır. Əslində, Türkiyə bu məsələdə vasitəçi ola bilərdi"

**Rusiya 2022-ci ildə İstanbulda (Türkiyə) əldə olunmuş razılaşma əsasında Ukrayna ilə danışıqlara qayıtmağa hazırdır. Bunu Rusiya Prezidenti Vladimir Putin deyib. Rusiya lideri bildirib ki, Moskva danışıqlardan heç vaxt vaz keçməyib: "Amma bəzi xüsusi tələblər əsasında yox, İstanbulda razılaşdırılan və faktiki paraflanan sənədlər əsasında".**

Putinin sözlərinə görə, o zaman mümkün sülh sazişinin demək olar ki, bütün parametrləri razılaşdırılıb, amma sonra Böyük Britaniya prosesə müdaxilə edib və Ukrayna hakimiyyəti başqa yol tutub. Həmçinin Putin qeyd edib ki, Çin, Hindistan və ya Braziliya sülh danışıqlarında vasitəçi ola bilər: "Bu məsələdə tərəfdaşlarımızla daimi əlaqə saxlayıram. Şübhə etmirəm ki, bu ölkələrin rəhbərləri bu mürəkkəb prosesin bütün təfərrüatlarını başa düşməyə kömək etməyə səmimiyyətlə sadiqdirlər". Kremlin mətbuat katibi Dmitri Peskov da deyib ki, Rusiya Ukraynada öz məqsədlərinə dinc yolla nail olmaq istərdi, lakin qarşı tərəf danışıqlara hazır olmadığı üçün xüsusi hərbi əməliyyat keçirməyə məcburdur: "Bizim üçün əsas odur ki, qarşımızda duran məqsədlərə nail olaq. Ondan sonra hansı üsullardan istifadə olunması ikinci dərəcəlidir. Təbii ki, bunu dinc yolla etmək daha məqsədəuyğundur, lakin biz görürük ki, nə Vaşinqton, nə Avropa dövlətləri, nə də Ukrayna indi siyasi-diplomatik vasitələrə meyilli deyil. Buna görə də, xüsusi əməliyyat məqsədlərə tam nail olunana qədər davam etməlidir". Ukrayna Prezidenti Volodimir Zelenski də deyib ki, Ukraynada sülh üzrə ikinci sammitdə Rusiya tərəfinin nümayəndələri də mütləq təmsil olunmalıdır. O əlavə edib ki, ölkəsi tərəfdaşları ilə birlikdə müharibənin başa çatması üçün detallı bir plan hazırlayır: "Biz Putinin səbəb olduğu böhranların hər biri üzrə ətraflı müzakirələr aparırıq. Onu ikinci sammitdə təqdim edəcəyik. Başa düşürük ki, Rusiya tərəfinin iştirakı olmadan müharibəni diplomatik yolla başa çatdırmaq çox çətin olacaq. Rusiyanın ikinci zirvə görüşündə təmsil olunmasını bizdən tərəfdaşlarımız istəyib".

**Politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, Rusiya Prezidenti V.Putin sülh və anlaşma deyərkən, xüsusən Türkiyənin rolunu xatırladarkən daha çox "taxıl sazişi" kimi məsələləri nəzərdə tutur. Ekspertin fikrincə, ara-sıra təşəbbüslər olsa da, Moskva-Kiyev arasında ciddi razılaşma əldə olunmayıb:**

"Əgər tərəflər arasında ciddi anlaşma olsaydı, zamanla bunu qalıcı müqaviləyə çevirmək mümkün olardı. Putinin Çini, Hindistanı vasitəçi kimi önə sürməsi təsadüfi deyil. Kreml rəhbəri vəziyyəti çox yaxşı başa düşür. İqtisadi vəziyyət Ukraynada necə bərbaddırsa, Rusiya da ona doğru getməkdədir. Faktiki olaraq tərəflərin ikisi də iqtisadi çöküş dövrünü yaşayır. Əslində, Türkiyə bu məsələdə vasitəçi ola bilərdi. Çin, Hindistan, Braziliya kimi ölkələrin vasitəçiliyinə Qərb razılıq verməyəcək. ABŞ və Avropa ölkələri, o cümlədən müharibənin davam etməsində maraqlı güclər sülh prosesinin başladılmasına imkan verməyəcəklər. Hadisələrin gedişi bunu göstərir. Rusiyanın Ukraynadan çəkilməsi Rusiyanın qısa zamanda parçalanmasına, Putin hakimiyyətinin ciddi zərbə almasına gətirib çıxara bilər. Digər variant isə Kiyevin ərazi itkiləri ilə razılaşmasıdır ki, bu da Ukraynanın tamamilə dağılması anlamına gələcək. O baxımdan hələlik sülhdən danışmaq çox tezdir".

**İsmayıl Qocayev**



# Rusiya Kamala Harrisi dəstəkləyir?

## Putinin açıqlaması yarızarafat, yarıciddi təsir bağışlayır

**Rusiya Prezidenti Vladimir Putin uzun müddət sonra ABŞ-də gözlənilən prezident seçkiləri ilə bağlı fikir səsləndirib. O, Vladivostok İqtisadi Forumunun plenar iclasındakı çıxışında bildirib ki, prezidentlik yarışında Rusiyanın favoriti Co Baydendir: "Demişdim ki, favoritimiz indiki Prezident cənab Bayden idi.**

O, yarışdan kənarlaşdırıldı, lakin bütün tərəfdarlarını xanım Kamala Harrisi dəstəkləməyə təşviq etdi. Ona görə biz də Harrisə dəstək olacağıq". Putin qeyd edib ki, Donald Tramp Rusiyaya qarşı indiyədək heç bir prezidentin tətbiq etmədiyi qədər məhdudiyyət və sanksiyalar tətbiq edib.

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, V.Putinin açıqlaması yarızarafat, yarıciddi təsir bağışlayır. Aydın məsələdir ki, Rusiyanın Baydeni dəstəkləməsi real deyil:**

"Əksinə, bu gün Moskvanın üzləşdiyi bir çox problemin səbəbkarı Co Bayden və onun komandasıdır. Lakin bir reallıq var ki, Kreml başçısının bu sözləri seçkiöncəsi namizədlərin reytinqinə və qələbə şanslarına təsirsiz ötüşməyəcək.

Putin köhnə KQB agentidir və manipulyasiya sahəsində peşəkardır, tərs psixologiya ilə seçkiləri manipulyasiya edir. Rusiya Prezidenti çıxışında vurğuladığı iki detalla Demokratların qələbə şansını azaldır. Bu detallar - ABŞ-dəki prezidentlik yarışında Rusiyanın favoritinin Co Bayden oluğunu deməsi və bütün tərəfdarlarını xanım Harrisi dəstəkləməyə təşviq etdiyini bildirməsidir. ABŞ-də seçicilərin əksəriyyəti Moskvanın Vaşinqtonun düşməni olduğunu bilir. Yəni düşmən ölkə demokratları, onların namizədlərini dəstəkləyir. Şübhəsiz, bu detal seçkidə öz sözünü deyəcək, Putinin sözlərini ciddiyə alanlar olacaq".

### "Kremlin rəhbəri köhnə KQB agentidir və manipulyasiya sahəsində peşəkardır, tərs psixologiya ilə seçkiləri manipulyasiya edir"

**Ekspertə görə, Rusiya prezidenti Trampı pisləyərək, əslində, onun hakimiyyətə gəlməsini istəyir:**

"Seçkiyə az bir vaxt qaldığından artıq hər kəs bilir ki, Tramp hakimiyyətə gələrsə, Rusiya-Ukrayna müharibəsini bitirmək üçün çalışacaq. Hətta Kiyevin Kursk basqını, son günlər Rusiyada irəliləməsi, Trampın ehtimal qələbəsinin Ukraynaya sərf etmədiyini göstərir. Nəticə olaraq Putin tərs psixologiya metodu ilə Kamala Harrisi dəstəklədiyini deyib. O, demokratların prestijini endirməyə, Trampı pisləyərək isə Respublikaçıların reytinqini qaldırmağa çalışır".

**İsmayıl**

# "Orden" və "medal "paylayan QHT-lərə xəbərdarlıq

## Hər kəs qanunla qadağan olunan fəaliyyətdən çəkinməli, məsələnin hüquqi məsuliyyətini dərk etməlidir

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi bəyanat yayaraq "orden" və "medal "paylayan QHT-lərə ciddi xəbərdarlıq edib. Bəyanatda qeyd olunur ki, son zamanlar bir sıra QHT-lərin özlərindən orden və medallar təsis etməsi və müxtəlif şəxsləri, xüsusilə şəhid ailələrinin üzvlərini, o cümlədən vəzifəli şəxsləri, dövlət məmurlarını bu orden və medallarla təltif etməsi müşahidə edilir:**



"Bildiririk ki, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən, orden və medal - vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Bu Qanundan başqa digər normativ hüquqi aktlarda orden və medallar (o cümlədən "orden" və ya "medal" ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz. İctimaiyyəti diqqətli olmağa çağırır, bu cür əməllərlə məşğul olan QHT-ləri qanunla qadağan olunan fəaliyyətdən çəkinməyə, məsələnin hüquqi məsuliyyətini dərk etməyə dəvət edirik".

Qeyd edək ki, Agentliyin bəyanatı ictimaiyyətdə müsbət qarşılanıb. İctimaiyyət, həmçinin vətəndaş cəmiyyəti institutu nümayəndələri uzun illərdir bəzi qht-lərin "orden, medal alveri"nə, nəhayət son qoyulacağına ümid etdiklərini bildiriblər. Xüsusən də şəhid valideynlərinə, ailə üzvlərinə və onlara "dəstək olanların" təltif edilməsi cəmiyyət tərəfindən qınanır. Sosial şəbəkə istifadəçilərinin bir çoxu qeyd edir ki, şəhid valideynlərinə, ailə üzvlərinə ən böyük, şərəfli adı şəhidlərin özü bəxş edib. Şəhid ailələri Vətənimizin qürurudur. Dövlət tərəfindən onlara daim diqqət və qayğı göstərilir. Amma bəzi üzdəniraqlar şəhid ailələrinə yardımla özlərini reklam edir, bəzi qht-lər də onları təltif edir. Cəmiyyət bu məsələdə yekdildir ki, diplom paylayan QHT-lərə ciddi nəzarət olmalıdır, onlar qanunla cəzalanmalıdırlar. Belə də olmalıdır, çünki cəzalanma olmayanda hər yetən əlinə bir dəmir alıb insanların sinəsinə taxır, bununla guya nəsə bir iş gördüklərini, fəaliyyət göstərdiklərini gözə soxmağa çalışırlar. Belələri qanun çərçivəsində cəzalanmalıdır. Saxtakarlıq edənlərə qadağa qoyulmalıdır! Agentliyin belə bir bəyanat verməsi çox doğru qərardır. İctimaiyyət hesab edir ki, bu xəbərdarlıq çoxdan edilməliydi. İndiyədək qht-lər özlərindən çox şey "icad" edib. Sosial şəbəkə istifadəçiləri arasında məlum bəyanatı gecikmiş hesab edənlər də var, çünki "bəzilərinin yaxası medal və ordenlə dolub artıq, sinədə yer qalmayıb". Mehriban Həsənova adlı istifadəçisi isə belə qeyd edib: "Paylamırlar, satırlar. Biri mənə "Heydər Əliyev medalı"nı təklif etdi, qəbul etmədim. QHT-nin Heydər Əliyevin adına medal təsis etməyə səlahiyyəti olmadığını bilirdim, soruşdum, utanmadan dedilər ki, 200 AZN-ə başa gəlir".

**"Şərq" bəzi QHT-lərin orden və medal alverinə kəskin rəy bildirən Gənc Vətənpərvərlər İctimai Birliyinin sədri Müqavimət (Muğan) Əliyevin fikirlərini təqdim edir:**

- Mən bu fikirləri 6 il bundan qabaq sədr olaraq Fəxri Xiyabanda Ulu Öndəri ziyarət vaxtı demişəm. Ziyarət vaxtı QHT sektorunda olan xanımların mübahisinin şahidi oldum və səsimi ucaldaraq bildirdim ki, hansısa yollarla aldığınız medalları taxıb bu ziyarətə gəlməyiniz ayıbdır, hansı səy və xidmətlərinizə görə o medalları sinənizə taxırsınız?! O zaman bir sıra QHT sədrləri mənim sözlərimə biganə qaldılar. Həmişə demişəm, bu gün də deyirəm, fəaliyyəti və xidmətləri olmayan qadın və kişilərin sinələrində medallar görəndə əsəbiləşirəm. Bu bəyanatı QHT sektorunda 26 il olduğuma görə, ilk Gənc Vətənpərvərlər İctimai Birliyinin təsiscisi, ictimai xadim, Şərq döyüş növləri üzrə fəxri bədən tərbiyəsi idman işçisi olaraq dəstəkləyirəm. Onu da qeyd edim ki, hər bir QHT sədrinin fəaliyyəti ilə tanış olmaq istəyirsinizsə, sosial şəbəkələr kifayətdir. Təəssüflə deyirəm ki, istər dövlət tərəfindən, istərsə hərbi yönümlü QHT tərəfindən təltif olunanlar özlərinə sual versinlər - mən bu medala layiqəm, yoxsa yox. Bu məni düşündürür, baxmayaraq ki, gecikmiş bəyanatdır. Hesab edirəm ki, heç bir faydalı fəaliyyəti, xidməti olmayan, amma təltif edilmiş qht sədrlərinin medalları geri alınmalıdır. Hərbi yönümlü qht-lərin sədrləri və əlaqədar təşkilatlar araşdırılmadan, tanışlıqla medallar alır. Mən şəxsən utanardım belə medal almaqdan, imtina edərdim.

**Məlahət Rzayeva**

**Gürcüstan Daxili İşlər Nazirliyinin Miqrasiya İdarəsi "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" qanun əsasında ötən ay müxtəlif ölkələrin 33 vətəndaşını ölkədən çıxarıb.**

"Şərq" xəbər verir ki, bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi məlumat yayıb.




# Gürcüstandan Azərbaycan vətəndaşları deportasiya olunur

## Azər Allahverənov: "Bu ölkədə fəaliyyət göstərən səfirliyimiz bu məsələni xüsusi nəzarətə götürməlidir"

Məlumata görə, xarici ölkə vətəndaşlarının bir hissəsi Gürcüstanı könüllü tərk edib, bir hissəsi isə Miqrasiya İdarəsinin həyata keçirdiyi tədbirlər nəticəsində ölkədən məcburi çıxarılıb.

"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Gürcüstan qanunu əsasında Hindistan, Misir, İordaniya, Türkiyə, İran, Azərbaycan, Avstraliya, Pakistan, Nigeriya və Çin, İraq və Rusiyanın ümumilikdə 33 vətəndaşı ölkədən çıxarılıb.

**"Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri və Miqrasiya Əməkdaşlıq Platformasının rəhbəri Azər Allahverənov "Şərq"ə açıqlamasında deyib ki, arasıra Gürcüstanın müvafiq qurumlarının Azərbaycan və digər ölkələrin miqrantları üçün sərt qərar verdiklərini eşidirik:**

"Ancaq bu, kütləvi formada olmur. Çünki Gürcüstanın iqtisadiyyatı əsasən turizmdən gələn gəlir vasitəsilə formalaşır. Düşünmürəm ki, hər hansı formada Gürcüstan hökuməti ayrı-seçkiliyə yol versin. Ola bilər ki, bu informasiyanı hansısa vədlə daxil ediblər ki, iki dövlət arasında gərginliyə səbəb olan vəziyyət yaransın. Zaman-zaman bu tipli informasiyaları dövriyyəyə buraxırlar. Ona görə də məlumatın kökünü araşdırmaq lazımdır. Əgər Gürcüstan hökuməti çıxarılma barədə qərar qəbul edibsə, düşünürəm ki, bunun ciddi əsasları var. Dövlət turizmdən nə qədər gəlir əldə etmək istəyində olsa belə, qanun qanundur. Miqrasiya qaydalarının pozulma halı varsa, müvafiq qaydada cəzalandırılır. Gürcüstanla Azərbaycan arasında kifayət qədər intensiv miqrasiya mübadiləsi mövcuddur. Pandemiya dönəmində quru sərhədlərinin bağlı olması və bu günə qədər prosesin davam etməsi fonunda iki dövlət arasında miqrasiya mübadiləsi daha çox hava yolları ilə həyata keçirilir. Bu elə də miqrant axınına səbəb olmur. Pandemiyaya qədər daha yüksək göstəricilər olub. Lakin son iki-üç il ərzində statistikanın artdığının şahidi oluruq. Nə qədər miqrasiya mübadiləsinin göstəricilərinin həcmi artarsa, bir o qədər də qeyri-qanuni miqrant qismində ölkə ərazisində yaşamaq niyyətində olan insanların sayında artım ola bilər. Bu isə həmin dövlətin miqrantlarla bağlı sərt qərarlar qəbul etməsinə gətirib çıxarır. Düşünürəm ki, bu hal həmin vəziyyətlərdən biri ola bilər. İnanmıram ki, bu, kütləvidir. Bizim diaspor təşkilatları, Gürcüstanda fəaliyyət göstərən Azərbaycan səfirliyi bu məsələni xüsusi nəzarətə götürməlidir".

**Fidan Həmişəyeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”;



# Yurdumuza qayıdırıq

## Şuşa şəhərinə daha 30 ailə - 102 nəfər köçürüldü

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı sentyabrın 5-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.**

Bu mərhələdə Şuşa şəhərinə 30 ailə - 102 nəfər köçürülüb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb.

Doğma yurda qayıdan Şuşa şəhəri sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Açarların təqdimatı mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmiləri iştirak ediblər.

”Bütün şuşalıların, keçmiş məcburi köçkünlərin öz evlərinə, doğma yurdlarına qayıtmalarını diləyirəm”. Bunu təqdimat mərasimində Şuşa sakini Həsənova Sevda deyib. O əlavə edib ki, bütün şəhidlərin ruhu, onların ailələri və valideynlərinin qarşısında baş əyirik, qazilərimizə cansağlığı arzulayırıq. Ali Baş Komandanımıza təşəkkürümüzü bildiririk. Bu gün biz onun sayəsində sevincimizi yaşayırıq”.

**Şuşa sakini Ləman Qasımova** isə Şuşada uzun illərin həsrətinə son qoyulduğu üçün çox sevinclidir. O, Şuşanı 10 yaşında tərk etmək məcburiyyətində qalıb və bu günü çox səbirsizliklə gözləyib: ”Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin, Prezidentimizi və rəhbərliyimizi qorusun!”.

”30 ildən sonra doğma yurdumuza, öz torpağımıza qovuşduğumuz üçün çox sevinirəm”- bunu isə Şuşa sakini Mübariz Məmmədov deyib.

Allahdan torpaqlarımızın azad edilməsi uğrunda can verən şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayan M.Məmmədov ölkə rəhbərliyinə də xüsusi minnətdarlığını ifadə edib. Bildirib ki, onların sayəsində biz bu gün sevincliyik və öz yurdumuza qayıdırıq”.

**- Şuşa sakini Gültəkin Kərimova:**

- Doğma Şuşaya qayıtdığım bu gün yaddaşıma sevincli gün kimi həkk olunur. Bu gün bizim çox sevincli günümüzdür, çünki bu gün biz doğma Şuşamıza qayıdırıq. Eyni zamanda bu gün biz şəhidlərimizə görə də kədərliyik. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Prezidentimizə dərin təşəkkürümüzü bildiririk. Var olsun Prezidentimiz. Məhz onun rəhbərliyi və igidlərimizin qoçaqlığı sayəsində torpaqlarımız düşməndən azad edildi”, - deyə o bildirib.

**- Şuşa sakini Ruslan İsmayılov:**

- Doğulduğum, böyüyüb-başa çatdığım torpaqda yaşayacağıma çox sevinirəm. 24 yaşında əziz Şuşanı tərk etmək məcburiyyətində qalmışam. Həmin illər nostalji hisslər olaraq xatirəmdə qalıb. Çoxları Şuşaya gedəndə, gedib Cıdır düzünə, İsa bulağına baxır. Amma biz gedəndə cığırları axtarırıq, keçmişi xatırlayan məkanları axtarırıq. Bizə bu günləri yaşadanların hər birinə öz dərin minnətdarlığımı bildirirəm”.

**Şuşa sakini Sevinc Abbasova da məcburi köçkün olduğu gündən Şuşaya gedəcəyi günü səbirsizliklə gözləyənlərdəndir.**

Onun sözlərinə görə, ötən 30 ildə çoxlu itkiləri olub, yaxınlarını itirib:

”Allah Prezidentimizi qorusun, şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Məhz onların sayəsində biz indi doğma yurdumuza yaşamağa gedirik.

Şuşaya getdiyimdə öncə şəhidlərimizin, yaxınlarımızın məzarlarını ziyarət etmək istəyirəm”.

**Şuşa sakini Nadir Həsənov:**

- Uzun illər tərk etdiyim Şuşanı görmək, Şuşada yaşamaq arzumun çin olduğu üçün sevinirəm. Bu gün bizim üçün həm kədərli, həm də sevincli gündür. Ona görə kədərlidir ki, biz 1992-ci ilin may ayının 8-də Şuşadan oğlumla birlikdə didərgin düşmüşük. Bizim üçün çox çətindir ki, bu illər ərzində əzizlərimizi, doğmalarımızı itirmişik. Biz bu gün onlarsız Şuşaya qayıdırıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların sayəsində bu gün Şuşaya qayıdırıq. Bu günü biz şəhidlərimizə, qazilərimizə borcluyuq. Ali Baş Komandanımıza borcluyuq ki, bu günümüzü, bu şəraiti yaradıb. Mən özüm də şəhid atasıyam. Oğlum leytenant Həsənov Nurlan torpaqlarımızın azad olunması uğrunda 44 günlük müharibədə şəhid olub. O, 6 aylığında bizimlə birlikdə Şuşanı tərk etmişdi. Şuşanı görmək arzusu idi, lakin Şuşanı görmək ona qismət olmadı. Onun övladlarına qismət olacaq ki, gedib Şuşada yaşayıb-yaratsınlar. Şəhidimizin ruhu da buna görə şad olacaq”.

Xatırladaq ki, 2020-ci ildə Vətən müharibəsində qazandığımız tarixi Zəfərimizdən sonra Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən, həm də dünyanı heyrətləndirən yenidənqurma işləri həyata keçirilir. Nəticədə

### "Artıq biz Azərbaycanımızın tarixi şəhəri, mədəniyyət mərkəzi, Qarabağ xanlığının mərkəzi olan Şuşa şəhərində yaşayırıq"

Böyük Qayıdış proqramına uyğun olaraq işğaldan azad edilmiş torpaqlarımızda salınan müasir kənd, qəsəbə və şəhərlərə köç karvanları yola düşür.

Respublikamızın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət belə karvanlardan biri də dünən Şuşa şəhərinə yola salınan sakinlərdir.

İndiyədək Şuşa şəhərinə 177 ailənin, yəni 672 nəfərin daimi məskunlaşması təmin edilib.

2026-cı ilin sonunadək, ümumilikdə, 34 min 500 keçmiş məcburi köçkün ailəsinin, yəni 140 minə yaxın insanın Qarabağ və Şərqi Zəngəzur rayonlarında məskunlaşdırılması nəzərdə tutulub.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində həmin ərazilərdə müasir infrastrukturun yaradılması, o cümlədən ərazilərin milli iqtisadiyyata sürətli reinteqrasiyası və dayanıqlı inkişafının təmin olunması, əhalinin layiqli yaşayış şəraitinin yaradılması və rifah halının yüksəldilməsi istiqamətində çoxşaxəli layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Bu məqsədlə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına dövlət büdcəsindən transfertlər ilbəil artırılır. Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin I rübündə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması məqsədilə nəzərdə tutulan 3 milyard 825 milyon manat vəsaitin sifarişçi təşkilatlar tərəfindən təqdim edilən sənədlər əsasında 31,9 faizi və ya 1 milyard 220 milyon manatı ayrılıb ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 58,6 milyon manat və ya 5 faiz çoxdur.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə bildirib ki, Azərbaycan Prezidentinin milli maraqlarına cavab verən siyasəti öz təsdiqini tapır və zaman keçdikcə işğaldan azad olunan ərazilərdə müasir, insanların tələbatlarına cavab verən yaşayış məntəqələrinin salınması davamlı olacaq. Azərbaycan öz inkişafı ilə dünyanın diqqətini cəlb etməyə davam edəcək:**

””Böyük Qayıdış” prosesi çərçivəsində artıq 150-dən çox ailə Şuşa şəhərinə köçürülərək mənzillə təmin olunub. Xatırlayırsınızsa, Şuşaya ilk köç mayın 8-də baş tutmuşdu. Bu, təsadüfi hal deyildi. Özündə böyük anlam daşıyan bir mesaj idi. Axı Şuşa 1992-ci ildə ermənilər tərəfindən məhz 8 mayda tam işğal olunmuşdu. Hər il 8 mayda onlar Şuşada bayram edir, ”parad” keçirirdilər.

Lakin Vətən müharibəsi qələbə ilə başa çatandan sonra ermənilər Şuşadan işğalçı kimi qovuldular. Ali Baş Komandanımızın siyasi iradəsi, ordumuzun gücü sayəsində də şuşalılarımız böyük sevinc hissi ilə öz doğma yurd-yuvalarına qayıdırlar. Hər birimiz bu günləri, qayıdış günlərini böyük səbirsizliklə gözləyirdik. Növbəsini gözləyən məcburi köçkünlərimiz də 30 illik həsrətə son qoyulmasını səbirsizliklə gözləyir. Ermənilərin murdar xəyalları, niyyətləri gözlərində qaldı. Artıq biz Azərbaycanımızın tarixi şəhəri, mədəniyyət mərkəzi, Qarabağ xanlığının mərkəzi olan Şuşa şəhərində yaşayırıq. Orada ən gözəl, yüksəksəviyyəli tədbirlərimizi keçiririk. Tədbirlərin ən gözəli, əzəmətlisi, təntənəlisi də elə şuşalıların öz doğma yurd-yuvalarına qayıdışıdır”.

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Paşinyandan BRICS gedişi

## Ermənistan Qərbdən nə təlimat gəlirsə əməl edir




**Ermənistan oktyabrda Kazanda keçiriləcək BRISS sammitində iştirak edəcək. Parlamentdən isə bildiriblər ki, Ermənistan BRICS-ə üzvlük məsələsini müzakirə etmir. Maraqlıdır, BRICS-ə üzvlük məsələsi niyə bu qədər önəm daşıyır? Bir müddət əvvəl Türkiyə və Azərbaycan da təşkilata üzv olmaq üçün rəsmi müraciət edib.**

Politoloq Azad Məsiyev ”Şərq”ə açıqlamasında deyib ki, BRICS dünya iqtisadiyyatında yeni güc mərkəzi olacaq: ”BRICS- də dünyanın nüfuzlu, böyük, geniş imkanlara malik olan dövlətləri fəaliyyət göstərir. Təşkilat dünyanın iqtisadi-siyasi məsələlərinə təsir etmək imkanı olan bir alyansdır. Bu baxımdan Azərbaycan da BRICS-ə üzv olmaq üçün rəsmi şəkildə müraciət edib. Çünki rəsmi Bakının xarici-iqtisadi siyasəti balanslaşdırıcı siyasətdir. Azərbaycan həm Avropa ilə, həm də şimal-cənub və şərq-qərb ilə balanslaşdırıcı siyasət həyata keçirir. Azərbaycan BRICS-ə daxil olmaq istəməklə də bu balansı qorumaq niyyətindədir. Ümumiyyətlə, Azərbaycan Avropanın 1/3- ni enerji təhlükəsizliyi ilə təmin etmək üçün müqavilələr bağlayıb, danışıqlar aparır. BRICS ilə də iqtisadi münasibətlərini genişləndirmək, bu təşkilatda söz sahibi olmaq və onun gücündən istifadə etmək Azərbaycanın da haqqıdır. Bu baxımdan Azərbaycan BRICS-ə üzv olacaq”.

**Rəsmi Bakıdan fərqli olaraq İrəvanın xarici siyasətində müstəqil olmadığını qeyd edən politoloq bunun səbəbini Paşinyanın maraqlarında görüb:**

”Paşinyan Ermənistan xalqının maraqlarını deyil, Qərbin maraqlarına xidmət edir. Ermənistan baş naziri sözdə başqa, əməldə isə başqa hərəkət edir. Bu kontekstdə də Rusiya prezidenti ilə də danışıqlarda BRICS-in və MDB-nin rəhbərlərinin toplantısında iştirak etmək üçün razılığa gəlib. Digər tərəfdən Paşinyan hökumətinin bu gedişinə baxmayaraq, Ermənistan bu təşkilata üzv olmayacaq. Rəsmi İrəvan BRICS- ə üzv olmaq üçün ərizə verməyib. Lakin MDB toplantısında iştirak etmək üçün Kazana gedə bilər. Ümumiyyətlə, Qərbdən nə təlimat gəlirsə, Paşinyan ona uyğun davranır. Bu baxımdan Ermənistanın hansı təşkilata üzv olub-olmayacağı onun daxili işidir. Amma Azərbaycan Ermənistandan fərqli olaraq balanslaşdırıcı siyasətə daha çox üstünlük verərək müstəqil addımlar atır. Bu da Azərbaycanın dövlət və milli maraqlarından irəli gəlir. Hesab edirəm ki, Azərbaycan BRICS təşkilatına üzv olmaqla iqtisadi sahədə yeni uğurlar əldə edəcək”.

**Banuçiçək Kalbalıyeva**




**Bəzi ekspertlər növbədənkənar parlament seçkilərindən sonra kommunal xidmətlərlə bağlı tarif qiymətlərinin aşağı endiriləcəyini iddia edirdilər.**

Hazırda cəmiyyətdə ilin sonuna doğru işıq, qaz və su kimi başlıca kommunal xidmətlərlə bağlı müəyyən ucuzlaşmanın olacağına dair gözləntiləri var. Amma bunun əksinin ola biləcəyini, yəni bahalaşmanın növbəti dalğasının gələcəyini düşünənlər də var.

# Kommunal xidmətlərin ucuzlaşması mümkün deyil

## Bu kimi məsələlər Tarif Şurasının səlahiyyətindədir

Bəs görəsən, yaxın gələcəkdə kommunal xidmətlərlə bağlı bizi hansı sürprizlər gözləyir?

**Mövzu ilə bağlı danışan iqtisadçı-ekspert Xalid Kərimli ”Şərq”ə bildirib ki, nəyinsə ucuzlaşacağını gözləməyin heç bir məntiqi əsası yoxdur:**

"Bir sözlə, bu fikirlər boş xülyadan ibarətdir. Yəni kommunal xidmətlərin ucuzlaşmağı qəti şəkildə mümkün deyil. Çünki hazırda inflyasiya mövcuddur və işçi qüvvəsinin qiyməti də getdikcə qalxır. Ümumiyyətlə, 30 ildə hansısa tarifin azaldıldığını görməmişik. Təbii ki, bu kimi məsələlər hökumətin Tarif Şurasının səlahiyyətindədir. Onlar istədiyi məhsulu mayasından baha və yaxud əksinə, ucuz da verə bilər. Xidmətlərin əhalinin üzərinə gəlməsi barədə obyektiv və şəffaf informasiya yoxdur. Yəni onların hesabatlarının ədalətli olması haqda yetərli fakt mövcud deyil. Təbii ki, Tarif Şurası özbaşına fəaliyyət göstərmir. Həmin şura hökumətin nümayəndələrindən təşkil olunur, İqtisadiyyat Nazirliyi isə başçılıq edir. Qərar olmadan Tarif Şurası hansısa məsələni qaldırmaq kimi cəsarət nümayiş etdirə bilməz. Ona görə də burada iqtisadi məntiqdən daha çox siyasi-sosial yanaşma var. Bu baxımdan əvvəlcədən proqnoz vermək çətindir. Amma ilin sonunadək qiymətlərdə bahalaşma gözlənilmir”.

**Nəzrin Vüqarqızı**

# 1 yaşınadək uşaqların ölüm sayında rekord qeydə alınıb

## Professor deyib ki, bədbəxt hadisələri təkcə həkimin səhlənkarlığı kimi qiymətləndirmək düzgün deyil



**Azərbaycanda ötən il həyatını itirən 1 yaşınadək uşaqların sayında rekord qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə 1 yaşınadək ölən uşaqların sayı 2039 nəfəri təşkil edib ki, bu da son 25 ilin ən yüksək göstəricisi hesab olunur. Onların 1146 nəfərini oğlan, 893 nəfərini isə qız uşaqları təşkil edib.**

2023-cü ildə ölkə üzrə 1 yaşınadək həyatını itirən uşaqların sayı 2022-ci ilə nisbətən 2 dəfədən çox artıb. Belə ki, 2022-ci ildə 1 yaşadək həyatını itirən uşaqların sayı 959 olub. Ümumilikdə 2039 nəfər uşağın əksəriyyəti, 63 faizi (1287) perinatal dövrdə meydana çıxan hallar səbəbindən həyatını itirib. Statistikaya əsasən ən az uşaq travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin nəticələrinə görə həyatını itirib, bura 17 nəfər daxildir. Tənəffüs sistemi xəstəlikləri səbəbindən 187 uşaq həyatını itirib, bu səbəbdən həyatını itirən uşaqların maksimum göstəricisi 2000-ci ildə 979 nəfəri təşkil edib. Eyni zamanda 1 yaşına çatmayan 136 uşaq anadangəlmə anomaliyalardan (inkişaf qüsurları, deformasiyalar və xromosom pozuntular), 47 uşaq bəzi infeksion və parazitar xəstəlik səbəbindən, 88 uşaq sinir sistemi xəstəliklərindən, 18 uşaq həzm sistemi xəstəliklərindən, 259 körpə isə digər səbəblərdən həyatını itirib.

**1 yaşadək körpələrin ölüm səbəblərinə toxunan pediatr həkim Vaqif Qarayev "Yeni Müsavat"a açıqlamasında deyib ki, bütün dünyada keyfiyyətsiz səhiyyə xidmətinin ən birinci göstəricisi ana və uşaq ölümüdür. Harada bu göstərici aşağıdırsa, demək ki, orada səhiyyə xidməti yaxşıdır. Pediatrın sözlərinə görə, 1 yaşadək körpələrin ölümü ilə bağlı qeyd olunan səbəblər isə hər zaman var. Yəni uşaq həyatının ilkin, perinatal dövrü var, həmin vaxt orqanda sistemlər lazım olan səviyyədə işləyə bilmir, ən əsası xəstəliyə çox həssas və meyilli olurlar:**
"Bəli, 1 yaşadək tənəffüs və mədə-bağırsaq sistemi həddindən artıq xəstəliyə meyillidir, müqavimət aşağı olduğuna görə. Ona görə də ölüm səbəbləri arasında bu iki sistemin xəstəlikləri birinci yeri bölüşür. Özü də təkcə Azərbaycanda deyil, bütün dünyada belədir".

**V.Qarayev 1 yaşadək uşaq ölümlərinin səbəbləri arasında inkişaf qüsurları, deformasiyalar və xromosom pozuntularının da yer almasından danışıb:**
"Məlum olduğu kimi, bir müddət əvvəl ölkəmizdə qohum evlilikləri qadağan olundu. Şəxsən mən bu qərardan çox sevindim və təqdir etdim. Ciddi təbabət də göstərir ki, qohum evliliklərindən xəstə uşaqlar dünyaya gəlir və biz buna tez-tez rast gəlirik. Bəzən müşahidə edirik ki, ailədə olan bütün uşaqlar intellektual baxımdan geri qalır, psixoloji vəziyyətində problemlər var. Və yaxud elə ailələr var ki, qohum evliliyin nəticəsi kimi konkret irsi xəstəliyindən əziyyət çəkir. Əlbəttə, təbabət heç vaxt qadağan edə bilməz ki, yaxın qohumlar evlənməsin, lakin bu cür evliliklərin fəsadlarını ortaya qoyur".

**Tibb eksperti, professor Adil Qeybulla isə hesab edir ki, uşaq ölümlərini təkcə həkimin səhlənkarlığı kimi qiymətləndirmək düzgün deyil. Bu barədə "Şərq"ə açıqlama verən professor deyib ki, doğuşdan əvvəl - ana bətnində və doğuşdan sonrakı uşaq ölümləri fərqləndirilməlidir:**
"Burada müxtəlif səbəblər var. Perinatal dövrdə (perinatal dövr dölün bətndaxili həyatının 22-ci tam həftəsindən (154-cü gündən) başlayır və doğuşdan 7 gün keçdikdən sonra qurtarır) uşaq ölümləri daha çox hamiləliyin patologiyasına bağlıdır. İstər ana orqanizmində, istər hamiləliyin gedişi boyu vaxtında aşkar olunmayan patoloji dəyişikliklər doğuş zamanı və daha sonra faciə ilə nəticələnir. Təəssüf ki, bu işdə pasiyentlərin günahı az deyil. Bəzi insanlar vaxtında həkimə müraciət etmirlər və hamiləliyin son dövründə həkim axtarırlar".

**A.Qeybullanın sözlərinə görə, bununla bağlı səhiyyə sahəsində bir sistem qurulmalıdır:**
"Hamilə qadınların monitorinqi aparılmalı, hamiləliyin gedişi protokollarla qeydə alınmalıdır ki, problem vaxtında aşkar edilsin. Hamiləlikdən əvvəl orqanızmin buna hazır olub-olmaması məlum olmalıdır. Çünki bəzi orqanizmlərin hamilə qalması müəyyən risklər yaradır".

Mütəxəssis deyib ki, uşaqların xəstələnməsində immun sisteminin zəif olması, onkoloji xəstəliklərin artması və sair kimi amillər üstünlük təşkil edir: "Eyni zamanda ekoloji cəhət, qidalanma faktoru çox ciddi rol oynayır. İstər ana südündə, istərsə də uşaq yeməklərində immun sisteminin kifayət qədər formalaşması üçün lazım olan inqrediyentlər yoxdur. Təəssüf ki, qida maddələrinin ölkəyə daxil olması müəyyən korporativ maraqlara xidmət edir. Bu iş həm də ictimai nəzarət altında olmalıdır. Lakin bu məsələlər öz həllini tapmayıb".

**Şəymən**



# Rus helikopteri oğurlandı, heç kim bilmədi

## Gizli əməliyyat 32 ildən sonra üzə çıxıb

*(Əvvəli səh:8-də)*



**Onların vəzifəsi Rusiya istehsalı olan "Mi-25 Hind" hücum helikopterini təhlükəsiz şəkildə təhvil vermək olub. Onlar "Mi-25 Hind"i helikopterlərdən birinin altına bağlayaraq havaya qalxıblar.**

Əvvəlcə hər şey planlaşdırıldığı kimi gedib. Lakin onlar Çadın paytaxtı Ncamena hava limanına çatmazdan cəmi qırx beş dəqiqə əvvəl gözlənilməz təhlükə ilə qarşılaşıblar. Nəhəng qum fırtınası onlara tərəf gəlib. Gecə Stalkerləri bölməsinin üzvləri belə kritik anlara hazırlıq keçsələr də, daşıdıqları ağır yükə görə manevr imkanları son dərəcə məhdud olub. Normal şəraitdə onlar fırtınanın üzərindən uçaraq təhlükədən xilas ola bilərdilər, lakin yükləri buna mane olurdu. Aparıcı təyyarənin pilotu Hava Tapşırıq komandiri mayor (MAJ) Geri S. Hasselbax həmin anları xatırlayır: "Qum fırtınası bizi "udduqda", hava limanını güclə seçə bildik. Bununla belə, mayor Hasselbax qısa müddət ərzində öz təyyarəsini qum fırtınasından çıxara bildi. Vəziyyətin ciddiliyini dərk edən mayor Hasselbax tez qərar verdi və sürətlə hava limanına doğru irəliləməyə başladı. Onun məqsədi helikopterini təhlükəsiz yerə endirmək, tapşırığı uğurla yerinə yetirmək və qum fırtınası yenidən təyyarəni bürüməzdən əvvəl eniş etmək idi. Hasselbax helikopteri müvəffəqiyyətlə endirdi, daha sonra digər Çinuk qum divarından çıxmağı bacardı və çox qısa müddətdə enişi tamamladıq". "Ümid dağı III" əməliyyatı illər boyu gizli qalıb. Sean Naylor bu əməliyyatı "Relentless Strike" kitabında belə təsvir edir: "Əməliyyat tam uğurla keçdi. "Bu, o qədər ciddi məxfilik şəraitində həyata keçirilirdi ki, 160-cı alayda bir çox adam illər sonra da bundan xəbərsiz qaldı". ABŞ hökuməti əməliyyatı həyata keçirən komandanın uğurunu 2020-ci ilin iyun ayında açıqlayıb.

**Məlahət**




# "Nar" təhsilə dəstək göstərərək ən yüksək bal toplayan abituriyentləri mükafatlandırıb

**Ən sərfəli mobil operator mövqeyini qoruyan "Nar" sosial layihələrə də dəstəyini davam etdirir.**

Belə ki, "Nar" 2023-2024-cü tədris ilində ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən ilk on abituriyenti xüsusi hədiyyələrlə təltif edib. Modern.az İnformasiya Agentliyinin dəstəyi ilə keçirilən bu layihə çərçivəsində tələbə adını qazananlara operatordan qızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib.

Mükafatlandırma mərasimində tanınmış dövlət, ictimai-siyasi xadimlər və media nümayəndələri iştirak edərək, ilin ən uğurlu abituriyentlərini təbrik ediblər. "Nar"ın İctimaiyyətlə Əlaqələr və Korporativ Ünsiyyət Departamentinin direktoru Hökümə Kərimova da çıxış edərək gəncləri təbrik edib, onlara gələcəkdə uğurlar arzulayıb və qeyd edib: "Təhsilə yönəlik layihələrə dəstək olmaq, "Nar" üçün yalnız bir sosial məsuliyyət deyil, eyni zamanda ölkəmizin uğurlu gələcəyinin qurulmasına töhfə vermək deməkdir. Sizin inkişafınız ölkəmizin gələcək uğurlarının təməlini təşkil edir və biz bu yolda sizə dəstək olmağa davam edəcəyik". "Nar"ın artıq səkkiz ildir ki, ənənəvi olaraq, davam etdirdiyi bu təşəbbüs mobil operatorun təhsilə verdiyi önəmini bir daha sübut edir. Operatorun həyata keçirdiyi digər layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə etmək olar.

# "Bakcell" və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti jurnalistlərlə görüşüb




**Ölkənin ən sürətlisi "Bakcell", 4 sentyabr tarixində Bakı Şəhər Halqası Əməliyyat Şirkəti ilə birgə jurnalistlər üçün səhər yeməyi təşkil edib.**

Görüşdə "Bakcell" və "Bakı Şəhər Halqası Əməliyyat Şirkəti" nümayəndələri Azərbaycanda keçiriləcək sürət yarışının əhəmiyyəti barədə ətraflı danışıb, media nümayəndələrini maraqlandıran sualları cavablandırıblar. "Bakcell"in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova çıxışında "Bakcell" və "FORMULA 1 QATAR AIRWAYS AZƏRBAYCAN QRAN PRİSİ 2024" çərçivəsində tərəfdaşlığın təsadüfi olmadığını vurğulayıb: "Hər iki tərəf özündə sürət və innovasiyaları ehtiva edir. Aprel ayında yeni brend strategiyasını təqdim edən "Bakcell", ötən dövr ərzində bir sıra innovativ və yüksək sürətli məhsullarını istifadəçilərin ixtiyarına verib. Belə ki, şirkət ölkəmizdə mövcud ən sürətli internet xidmətini - "Fiber 1" məhsulunu təqdim edib. Bundan əlavə, "Bakcell"in yeni məhsulları olan VoWiFi (Wi-Fi üzərindən zəng) xidməti, ən geniş partnyor şəbəkəsinə malik "Bakcell Kart" və süni intellekt dəstəkli "Tarif Məsləhətçisi" müştərilərimizin xüsusi marağına səbəb olub".

*Qeyd edək ki, "Bakcell" "FORMULA 1 QATAR AİRWAYS AZƏRBAYCAN QRAN PRİSİ 2024"ün rəsmi tədbir sponsorudur. Bununla bağlı "Bakcell" və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) çərçivəsində müqavilə imzalanıb.*

# Bakıdan kənar ərazilərə fikir verən yoxdur

## İcra hakimiyyətləri funksiyalarını yerinə yetirə bilmir



**Masazırda Heydər Əliyev plakatından bir az aralı, "Türkmen" klinikasının yanında zibil qabları dolaraq zibillər yerə tökülüb.**

Maraqlıdır, ölkəmizin COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi edəcəyi bir dönəmdə belə halların qarşısı niyə alınmır? Ümumiyyətlə, daşan zibil qutularına kimlər nəzarət etməlidir?

**Mövzu ilə bağlı fikirlərini bölüşən ekoloq Qorxmaz İbrahimli "Şərq"ə bildirib ki, COP29 Bakının mərkəzi hissəsində keçirildiyi üçün kənar ərazilərə fikir verən yoxdur:**

"Məmurlar tədbirin harada keçiriləcəyini bildiyinə görə kənar yerlərə baxmırlar. Yəni ancaq görünəcək yerləri diqqətdə saxlayıb, görünməyən yerlərdə "nə olar-olar" prinsipi ilə yaşayırlar. Bizim məmurlar hər zaman belə olub. Çünki onlara qarşı ciddi tədbirlər görülmür. İllərdir ki, vəzifələrində oturublar və istədikləri kimi də hərəkət edirlər. 3-4 ildən bir kadrların yeri dəyişdirilsə və yaxud işlərinə görə töhmət, cəza alsalar, belə hallar olmaz. Demoqrafik siyasətin yanlış olmasına görə, xüsusən də 90-cı illərdə məmur özbaşınalığından Abşeron yarımadasında yararlı sahələr paylanıldı və satıldı. Böhran vaxtı rayonlardan Bakıya axın edən insanlar tərəfindən müxtəlif yerlərdə məskunlaşmağa başlanıldı. Masazırın yaxşı yerlərində məmurlar, digər yerlərində isə kasıblar gecəqondu tikərək böyük qəsəbə yaratdılar. Hər bir qəsəbənin gen planı olmalıdır. Ancaq bunlar Bakının və Abşeronun gen planı hazırlanmadan həmin əraziləri satdılar. Bakı şəhərinin abad olan və olmayan hissəsi var. Rəsmilərin, dövlət rəhbərliyinin gündəlik keçdiyi yerlər hər gün təmizlənir və abadlaşdırılır. Lakin elə yerlər var ki, orada dövlət tədbirləri keçirilmir, məmurlar o yoldan istifadə etmirlər. Ona görə də həmin ərazilər nəzarətsiz qalır. Biz Bakı şəhərinin tədricən boşaldılması haqqında düşünməliyik. Vətəndaşlar da öz ömürlərini kəsməklə məşğuldurlar. İnsanlar öz rayonlarına, ərazilərinə gedərsə, daha yaxşı olar. Təbii ki, hər kəs Bakını tərk etməli deyil. Hökumət rayonlarda iş yerləri açsa, istehsalat qursa, insanlar Bakıda gecəqondu qurmazlar və öz rayonlarına gedərlər. Zibil yığanlar tətil etmir, onlar səhərdən axşama qədər işləyirlər. Amma yəqin ki, o ərazini təmizləməyə ya çatdırmırlar, ya da rəhbərləri məsləhət bilmir. Ümumiyyətlə, icra hakimiyyəti funksiyalarını bilmir. Çünki bəlli deyil taleləri necə olacaq. Onlar başsız atlı kimi hərəkət edirlər".

**Fidan Həmişəyeva**

# Ağadadaş Ağayev klinikanı məhkəməyə verdi



**Xalq artisti Ağadadaş Ağayev balta ilə insident törətdiyi "Medera Hospital"ı məhkəməyə verib.**

Unikal-ın məlumatına görə, Xalq artistinin Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr - Mənəvi zərərin ödənilməsi ilə bağlı verdiyi şikayətə Binəqədi Rayon Məhkəməsində hakim Nigar Nəbizadənin sədrliyi ilə baxılacaq.

*Qeyd edək ki, hadisə iyul ayında baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb. Mühafizəçi Nurəddin Cəlilov isə Xalq artistini döyüb. Balta isə klinikada çalışan qadın N.Paşayevaya dəyərək xəsarət yetirib.*

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 1865



## Bir ayağı üstə 2 saat 21 dəqiqə dayandı

**Dünyada bir ayağı üzərində durma üzrə yeni rekord qazanılıb.**

Bakupost.az xəbər verir ki, 50 yaşlı Ramfal Uttar dünyada bir ayağı üstə ən çox dayanan insan olduğunu bir neçə dəfə sübut edib. 2021-ci ildə o, 1 saat 6 dəqiqə ilə rekord qırmışdı. Daha sonra 1 saat 38 dəqiqə dayanmağı bacardı.

Amma bu yay o triumfa imza atdı. Gözləri bağlı, özünü balanslaşdıraraq, bir ayağı üstə 2 saat 21 dəqiqə dayandı.

Rekordsmen bu bacarığı və uğurlarını atasına borclu olduğunu deyib. O, uşaqlıqdan Ginnesin Rekordlar kitabının fanatı olub.

## TEXNOFEST yeni rekorda imza atıb

Builki yarışlara 1 milyon 650 min iştirakçı müraciət edib



**Türkiyənin Antalya şəhərində ölkənin ilk Aviasiya, Kosmos və Texnologiya Festivalı - TEXNOFEST-in Aralıq dənizi Texnologiyaları Yarışmalarının final mərhələsi başlayıb.**

Builki yarışlara 1 milyon 650 min iştirakçı müraciət edib ki, bu da TEXNOFEST-də rekord göstəricidir.

Azərtac xəbər verir ki, Antalyanın ANFAŞ Beynəlxalq Sərgi və Konqres Mərkəzinin ev sahibliyi ilə baş tutan tədbirdə 25 sahə üzrə texnologiya yarışları təşkil olunub. Dörd gün davam edəcək müsabiqə 49 əsas və 127 alt kateqoriya üzrə keçirilir.

Süni intellekt və kommunikasiyadan, bio və kənd təsərrüfatı texnikalarına qədər müxtəlif sahələr üzrə aparılan yarışların final mərhələsində 1270 komanda ilə 6 min 514 iştirakçı mübarizə aparır. İştirakçılar, eyni zamanda, Türkiyənin ən böyük texnologiya şirkətlərinin təşkil etdiyi təlim və seminarlarda iştirak edəcək, müxtəlif texnologiya sahələri üzrə mütəxəssislərlə görüşəcəklər.

## Hakan Çalhanoğlu "Qızıl top"a namizəd oldu

Messi və Ronaldo siyahıda yoxdur



**İtaliya A seriyasında çıxış edən Türkiyənin milli futbolçusu Hakan Çalhanoğlu ilin futbolçusuna verilən "Qızıl top" mükafatına namizəd olub.**

"Şərq" xəbər verir ki, "France Football" jurnalının 1956-cı ildən bəri təqdim etdiyi mükafata bu il namizəd olan 30 futbolçunun adı "Qızıl top"un sosial media hesabında açıqlanıb.

2003-cü ildən bəri ilk dəfə futbol əfsanələri portuqaliyalı ulduz hücumçu Kriştian Ronaldo və argentinalı ulduz futbolçu Lionel Messi 21 ildən sonra ilk dəfə olaraq builki "Qızıl top"a namizədlər sırasında düşməyiblər.

Ötən il "Qalatasaray"ın İtaliyanın "Napoli" komandasından icarəyə götürdüyü nigeriyalı hücumçu Viktor Osimhen də siyahıda olsa da, bu il namizədlər arasında deyil.

Messi 8 dəfə "Qızıl top"u ən çox qazanan oyunçudur, onun ən yaxın izləyicisi Ronaldo isə bu mükafatı 5 dəfə qazanıb.

**Turan**

## Yemək olmaz

320 kiloqramlıq ton balığı qaçıb və 3 gün sonra tapılıb



**Kocaelinin Gebze rayonunda həvəskar balıqçılar tilovla 2,5 metr uzunluğunda və 320 kilo ağırlığında nadir mavi üzgəcli tuna balığı tutublar.**

"Şərq" xəbər verir ki, Gebzedə dənizə çıxan həvəskar balıqçılar Görkem Gürsoy və Volkan Topçu nadir tuna balığı görüblər. İki dost tilovu balığa tərəf atıblar. Nəhəng balıq ilişib. Lakin balıq sıyrılıb ərazidən qaçıb. Gürsoy və Topçu tuna balığını 3 gün sonra dənizdə taparaq sahilə gətiriblər. Məsələ ilə bağlı Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyinə məlumat verildikdən sonra qruplar tərəfindən yoxlama aparılıb və qeydə alınıb. Yaxalandıqdan 3 gün sonra tapılan 2,5 metr uzunluğunda, 320 kiloqram ağırlığında olan tuna balığı yeyilməz olub.

**Turan**

## Siqaret çəkənlər və diabetli insanlar...

Cib telefonu ürək-damar xəstəlikləri riskini artırır



**Yeni bir araşdırma, müntəzəm cib telefonu istifadəsinin xüsusilə siqaret çəkənlərdə və diabetli insanlarda ürək-damar xəstəlikləri riskini artırdığını müəyyən edib.**

Bundan əlavə, yuxusuzluq, psixoloji stress və nevrotikliyin də müşahidə olunduğu açıqlanıb. Canadian Journal of Cardiology-da nəşr edilən tədqiqatda qeyd olunur ki, Mobil telefonlar tərəfindən yayılan radiotezlikli elektromaqnit sahələri hipotalamo-hipofiz-adrenal oxunun tənzimlənmə sisteminin pozulmasına, iltihablı reaksiyalara və stressə səbəb olur. Buna görə də ürək və qan damarları kimi müxtəlif orqanlara təsir edir.

Tədqiqata Böyük Britaniya Biobankında məlumatları olan 444.027 nəfər iştirak edib.

Tədqiqatın nəticəsini 12 illik orta izləmə müddətində sadalanan xəstəliklərlə əlaqəli xəstəxana və ölüm qeydlərindən istifadə edərək, insult, koronar arteriya xəstəliyi, atrial fibrilasiya və ürək çatışmazlığı barədə məlumatlar formalaşdırıb.







# Rus helikopteri oğurlandı, heç kim bilmədi

Gizli əməliyyat 32 ildən sonra üzə çıxıb





**Böyük güclərin çarpışma dövrü olan "Soyuq müharibə" dönəmi həm birbaşa meydanda, həm də pərdə arxasında inanılmaz hekayələrlə doludur. Bu dövrün ən qeyri-adi və sirli əməliyyatlarından biri də illərdir gizli qalan III Ümid dağı əməliyyatıdır.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, bu əməliyyat Afrika səhrasının ortasında baş verib. ABŞ xüsusi təyinatlıları sovet istehsalı olan "Mi-25 Hind" hücum helikopterini ələ keçirmək üçün inanılmaz əməliyyat həyata keçiriblər. Şimali Çad neft ehtiyatları ilə zəngin bir bölgə olduğundan, 1970-1980-ci illər arasında Liviya ilə Çad arasında davamlı münaqişələr olub. Təqvim 1987-ci ilin aprelini göstərdikdə, toqquşmalar çadlıları dəstəkləyən fransız qoşunları ilə dəf edilib. Bu uğurdan sonra Çad qoşunları Liviyanın Ouadi Doum hava limanı ilə birlikdə Mi-25 döyüş helikopterini ələ keçiriblər. Sürətli və iki nəfərlik hibrid hücum və nəqliyyat vertolyotu olan "Mi-25 Hind" uzun illər ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin diqqətini çəkib. Lakin CIA onu əldə edə bilməyib. Lakin Liviyanın geri çəkilməsi ABŞ üçün böyük fürsət olub. Qərbin müttəfiqi kimi Çad helikopteri amerikalılara təslim etməyə razılaşıb. Buna görə dəqiq bir əməliyyat keçirilməli idi. Beləliklə, III "Ümid dağı" əməliyyatına start verilib. Əməliyyatın məqsədi Afrikada 15 illik müharibədən sonra liviyalılar tərəfindən tərk edilmiş sovet istehsalı olan "Mi-25 Hind" hücum helikopterini uğurla ələ keçirmək və təhvil vermək idi. Bəs bu helikopteri bu qədər cəlbedici edən nə idi? Mi-25 Hind" hücum və nəqliyyat helikopteri idi. Həm hərbi, həm də strateji baxımdan böyük əhəmiyyət kəsb edirdi. Mi-25-in ələ keçirilməsi təkcə texniki nailiyyət deyil, həm də ABŞ-nin milli təhlükəsizliyi və strategiyası baxımından böyük qələbə olacaqdı. Əməliyyat 1988-ci ilin iyununda başlayıb. 160-cı Xüsusi Əməliyyat Aviasiya Alayı Çad hava limanında baza qurub. İyunun 11-nə keçən gecə lazımi hazırlıq işləri görülüb. Bir cüt MH-47D Chinooks yalnız gecə görmə eynəklərindən istifadə edərək Ouadi Douma uçub və Mi-24 Hind hücum helikopterini ələ keçirərək geri qayıdıb. ABŞ ordusunun ən elit bölmələrindən biri olan 160-cı Xüsusi Əməliyyat Aviasiya Alayı, "Gecə Stalkerləri" çətin missiyalarda ixtisaslaşmış qüvvə kimi tanınır. Bu bölməyə qoşulmuş iki MH-47D Chinook ağır nəqliyyat helikopteri kritik bir missiyanı yerinə yetirmək üçün hərəkətə keçib.

*(Davamı səh:7-də)*

**Məlahət**



# 372 gün suyun altında qaldı

İzlənən video heyrətləndirdi

**Türkiyənin Adana bölgəsində ailəsi ilə gəzintiyə çıxan Salih Yavuz dərədəki çayda çimərkən suyun dibində cib telefonu tapıb. Cihazı idarə etməyi bacaran Yavuz telefonda ən son çəkilən videoya baxanda heyrətlənib.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, 2023-cü ilin avqust ayında Karaisalı rayonundakı Dokuzoluk Kanyonundakı düşərgəyə dostları ilə gələn Əmrəcan Nakit cib telefonu ilə görüntülər çəkərək suya atılıb. Suda mobil telefon əlindən sürüşüb və suyun içində itib. Bir il sonra mobil telefon təmirçisi Salih Yavuz ailəsi ilə birlikdə həmin kanyona piknikə gedib. Yavuz sərinləmək üçün suya girib və ayağına ilişmiş telefonu götürüb təmir edib. Salih Yavuz: "çimərkən ayağıma bir əşya ilişdi. Bunun telefon olduğunu anlayanda çətin də olsa onu sudan çıxartdım. Baxdım ki, telefonun içi suyla dolub. Telefonu dəsmala büküb çantama qoydum. Bir telefon adamı olaraq, bunu tapmaq mənim kimi insan üçün əla bir şeydir. Cihazı iş yerimə gətirdim. Tamamilə söküb saxladım. Cihazın heç bir hissəsini dəyişmədən işə saldım. Cihazı işə saldıqdan sonra parolu tapmaq üçün bir qədər çalışdım, nəhayət, 6 rəqəmli parolu tapdım. Bunun sayəsində telefon sahibinin məlumatını və nömrəsini tapdım və onunla əlaqə



saxladım. Telefonu itirən şəxs telefonu tapmağıma inanmadı. Dedi, dalğıc gəldi, tapa bilmədi, necə tapdın? Düşündü ki, mən onu aldadıram. "Ona video vasitəsilə zəng edib telefonu göstərəndə mənə inandı", söyləyib. Salih Yavuz qeyd edib ki, telefonda son videoya baxanda 2023-cü ilin avqustunda çəkildiyini görüb. Məlum olub ki, telefon 372 gün suda qalıb. Telefonu itən vətəndaş onun tapılmasına çox sevinib. Əmrəcan "Suyun təxmini dərinliyi 3 metrə yaxın idi. Dostlarımla nə qədər axtarsaq da, telefonu tapa bilmədik. Hətta dalğıc çağırdıq, gəldi, amma o da tapa bilmədi. Salih Yavuzun telefonu tapması möcüzədir", söyləyib. Əsas möcüzə isə odur ki, uzun müddət suda qalmasına baxmayaraq, telefonun yaddaşı silinməyib.

**Məlahət**

## Heç vaxt atmayin!

Badımcan qabığının faydaları bitməz



**Badımcan qabıqları olduqca faydalı antioksidant maddələrlə (antosian, resveratrol, nasunin) zəngindir.**

Sağlamolun.az yazır ki, badımcanın qabıqları da ən az özü qədər faydalıdır.

Tərkibindəki antioksidantlar orqanizmdə gedən qocalma proseslərini ləngidir, orqanizmi hüceyrə səviyyəsində qoruyur.

Badımcan qabıqlarında olan antioksidantlar aterosklerozla mübarizədə ən yaxşı təbii vasitələrdən biridir. Ateroskleroz zamanı damarların daxilində xolesterin (yağa oxşayan maddə) yığılır. Nəticədə damarlar daralır, onların elastikliyi pozulur. Bu isə hipertoniya, stenokardiya, infarkt və s. ürək-damar sistemi xəstəliklərinin inkişafına səbəb olur.

Ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkənlərə badımcan qabıqlarının dəmləməsi çox yaxşı kömək edə bilər. Bu dəmləmə aterosklerozun inkişafını ləngidir, hipertoniya zamanı yaxşı kömək edir.

**Dəmləmənin hazırlanması:**

1 orta ölçüdə badımcan soyulur, qabıqları doğranılır, axşamdan termosda 250 ml qaynar suda dəmlənilir, növbəti gün ərzində içilir. Dəmləməni 3-4 hissəyə bölün və qida qəbulundan 20 dəqiqə əvvəl için.

Müalicə kursu - 1 ay. Sonra 1 ay fasilə verin və yenə təkrarlayın.

Bu dəmləmə həmçinin şəkərli diabetdən əziyyət çəkələrə də faydalıdır - qanda şəkərin səviyyəsini tənzimləyir. Bundan əlavə bu dəmləmə orqanizmə şişəleyhinə təsir edir.

## Keçmiş "Türkiyə gözəli" vəfat etdi



**Keçmiş "Türkiyə gözəli" Simla Kantarcıoğlu vəfat edib.**

O, 79 yaşında dünyasını dəyişib. Qızı Ebru Kantarcıoğlu onun ölümü ilə bağlı açıqlama verib:

"Ürək çatışmazlığı var idi. Diz qapaqlarında problem yarananda əməliyyat olundu. 4-5 il əvvəl yıxılıb ombasını sındırandan sonra bədəni əldən düşdü. Sonuncu dəfə dostunun evində özünü pis hiss etmişdi və xəstəxanaya aparmışdılar. 2-3 gündən sonra huşunu itirdi. Sağalırdı, amma vəfat etdi".

*Qeyd edək ki, Simla 1969-cu ildə "Türkiyə gözəli" seçilib.*